AZƏRBAYCAN MİLLİ ELMLƏR AKADEMİYASI
MƏRKƏZİ ELMİ KİTABXANA

“HEYDƏR ƏLİYEV. Müstəqilliyimiz əbədidir“

çoxcildliyin elmi-biblioqrafik göstəricisi

2 cilddə

1-ci cild

ÜMUMMİLLİ LİDER HEYDƏR ƏLİYEVİN 90 İLLİK YUBİLEYİNƏ HƏSR OLUNUR

Qərb West 1986-cı ildən
Şərq East since 1986
BAKI 2013

Azərbaycan Milli Elmlər Akademiyası
Rəyasət Heyətinin qərarı ilə çap olunur

Layihənin rəhbəri:
Akif Əlizadə
Azərbaycan Milli Elmlər Akademiyasının prezidenti,
akademik

Elmi redaktor:
İsa Həbibbəyli,
Azərbaycan Milli Elmlər Akademiyasının vitse-prezidenti,
akademik

Tərtibçi-müəllif:
Aybəniz Əliyeva-Kəngərli,
filologiya üzrə elmlər doktoru

"HEYDƏR ƏLİYEV. Müstəqilliyimiz əbədidir" çoxcildliyin
elmi-biblioqrafik göstəricisi. 2 cilddə. 1-ci cild.
Bakı, **"Şərq-Qərb"** Nəşriyyat Evi, 2013, 632 səh.

Ümummilli lider, görkəmli dövlət və ictimai-siyasi xadim Heydər Əliyevin zəngin irsini əks etdirən "Heydər Əliyev. Müstəqilliyimiz əbədidir" külliyatının 2 cildli elmi-biblioqrafik göstəricisi ulu öndər Heydər Əliyevin müxtəlif dövrləri əhatə edən çıxışlarının, nitqlərinin, bəyanatlarının, müsahibə və məktublarının müvafiq bölmələrdə əks olunduğu bibliometrik vəsaitdir.

"Heydər Əliyev. Müstəqilliyimiz əbədidir" elmi-biblioqrafik göstəricisinin 1-ci cildində materiallar "Dövlətçilik, müstəqillik və demokratiya", "Milli təhlükəsizlik", "Ordu quruculuğu", "Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi", "İqtisadiyyat", "Neft strategiyası", "Aqrar siyasət", "Elm və təhsil", "Mədəniyyət, ədəbiyyat, dil, incəsənət", "Bədən tərbiyəsi və idman", "Tibb və səhiyyə", "Milli-mənəvi dəyərlər", "Qadın və ailə", "Uşaq və gənclər" bölmələrdə oxucuya təqdim edilir.

Elmi-biblioqrafik göstərici Heydər Əliyev irsini tədqiq edən alim və mütəxəssislər üçün dəyərli informasiya mənbəyi olacaqdır.

ISBN 978-9952-404-79-1
ISBN 978-9952-404-77-7

Şərq East Qərb West
1986-cı ildən since 1986
www.eastwest.az
www.fb.com/eastwest.az
© "Şərq-Qərb" Nəşriyyat Evi, 2013



AZƏRBAYCANIN
DÖVLƏT MÜSTƏQİLLİYİ,
MİLLİ AZADLIĞI ƏBƏDİDİR

Heydər ƏLİYEV

AZƏRBAYCANDA MÜSTƏQİL DÖVLƏTÇİLİYİ YARADAN VƏ YAŞADAN – ÜMUMMİLLİ LİDER HEYDƏR ƏLİYEVİN QADİR SİYASƏTİDİR

İstər bir azərbaycanlı,
Azərbaycan Respublikasının
vətəndaşı, istərsə də onun rəhbəri,
Prezidenti kimi mənim həyat amalım
yalnız sizə – bütün varlığım qədər
sevdiyim Azərbaycan xalqına,
dövlətçiliyimizə, ölkəmizin iqtisadi,
siyasi, mənəvi inkişafına xidmət olmuşdur.

Heydər Əliyev

Böyük missiyanı gerçəkləşdirən siyasi düha

Dövlət qurmaq, müstəqil yaşamaq bəşər tarixində heç də bütün xalqlara nəsib olmur. Milli quruculuğun lideri kimi, xalqın böyük əzm və etimadına layiq olmaq siyasətçinin, dövlət xadiminin fədakar əməyini, böyük dühasını tələb edir. Tarixdə vaxtı ilə dövləti olan, sonra müxtəlif səbəblərdən varlığına son qoyulan ölkələr də, zahirdə öz suverenliyini hissə-hissə itirən (Ermənistan kimi) formal müstəqil dövlətlər də az olmamışdır. Dövlətlərin yaranması və inkişaf tarixi çox çətinliklərdən keçib, çiçəklənmə və tənəzzül fazalarını yaşayıblar.

Bütün bu proseslərdə danılmaz və ümumi olan bir cəhət var. Bu həmin proseslərin həlledici bir amilə –

"milli siyasi lider" faktoruna bağlı olmasıdır. Hər bir dövlətin uğurları bu konkret amildən asılı olur.

Tarixdə adı dövlətçiliyin simvoluna çevrilən və onunla qoşa çəkilən çox az siyasi liderə rast gəlmək olar. Tanrının və taleyin hökmü ilə müstəqil dövlətimizin ən müasir tarixi də məhz belə liderin adı ilə bağlıdır və dövlətçilik salnaməsinə şanlı səhifələr məhz onun siyasi xətti ilə, rəhbərliyi ilə yazılıb. XX əsr tarixində, dünya siyasətində etiraf edilən fenomen şəxsiyyət Heydər Əliyevin yaratdığı milli dövlətçilik, tarixin bizə bəxş etdiyi milli sərvətdir və onun dəyərini dərk etməliyik.

İstər Azərbaycan tarixində, istərsə də xalqın yaddaşında Heydər Əliyev müstəqil və suveren dövlətin simvolu, xarizmatik siyasət dahisi, cəsur insan və ən böyük vətəndaş kimi qalmışdır və qalacaq. O, Azərbaycanın ən yeni tarixində bütöv bir epoxanı özündə təcəssüm etdirən, müstəqil dövlətin siyasi, iqtisadi, hüquqi, sosial-mədəni, elmi əsaslarını yaradan, onların ardıcıl inkişafını təmin edən siyasi kursun və milli inkişaf strategiyasının müəllifidir. Bu gün biz azərbaycanlıların ölkəmiz haqda danışanda fəxr edə biləcəyi, qürurla öyünəcəyi çox uğurları var. Onların istisna olmadan hamısı Heydər Əliyevin adı ilə bağlıdır. Müstəqil Azərbaycanda elə bir sahə yoxdur ki, onun inkişafında Heydər Əliyevin zəhməti olmasın.

Belə deyim var ki, insanlar yaxşıya tez alışır, onları adi kimi qəbul edirlər. Eyni zamanda Azərbaycanı əvvəllər görən, uzun zaman burada olmayan və yenidən gələn insanlar onun nə qədər inkişaf etdiyini görərək heyrətlərini sadəcə gizlədə bilmirlər. Bu həmin qadir siyasətin təntənəsidir.

Milli dövlət və milli lider müasir tarixin fenomenləridir

Ümumi qənaətə görə, məhz XX əsrdə "dövlət" və "şəxsiyyət" anlayışları bir simada – "milli lider" simasında cəmlənə bilmiş və həmin əsr tarixə dünya şöhrətli liderlər bəxş etmişdir. Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyev həmin lider şəxsiyyətlərdən biridir.

Milli lider olmağın meyarları və izahı müxtəlifdir. Hələ Aristotel yazırdı ki, "siyasi liderliyin ilkin şərti dövlətin gələcəyini öncədən görmək və gördüyünü həyata keçirə bilməkdir".

Adətən, dünyanın klassik siyasi sistemlərində (məsələn, ABŞ-da) dövlətin Konstitusiyasını yaradanlar millətin, xalqın lideri hesab edilə bilərlər. Həmin Konstitusiyalarda dövlət başçısının, prezidentin səlahiyyət və vəzifələri barədə yazılır. Onlar dövlətin daxili və xarici siyasətini müəyyən edən, onu beynəlxalq münasibətlərdə təmsil edən ali vəzifəli şəxslər kimi qeyd edilir.

Azərbaycan xalqı bilir ki, dövlətimizin ilk, müstəqil və demokratik Konstitusiyasının – Ana Qanunun müəllifi də Heydər Əliyevdir. Lakin o, Ümummilli Lider zirvəsində təkcə buna görə qərar tutmayib. İlk əvvəl Konstitusiyada adı həkk olunacaq "Müstəqil Azərbaycan dövlətini" yaratmışdır və onun bütün sahələrdə sarsılmaz təməllərini müəyyən etmişdir.

Onun xalq üçün gördüyü, sadalanması mümkün olmayan başqa neçə-neçə tarixi xidmətləri, fədakarlıqları var. Təkcə bu misal Ümummilli Liderin həm yaddaşımızda, həm də azərbaycanlı-

ların qəlbində tutduğu müstəsna tarixi yer haqda təsəvvür əldə etməyə imkan verir. Həm də göstərir ki, Heydər Əliyevin xidmətləri dünya siyasi sistemlərində müəyyən edilən "milli lider" çərçivəsinə, hüdudlarına sığmır. Bu necə baş verir?

Dövlətlər kimi dövlət başçıları da çoxdur və hər birinə siyasi lider olmaq nəsib olmur. Siyasi liderliyin mahiyyəti – dövlətinin milli maraqlarına cavab verən yeganə və bənzərsiz inkişaf yolunu müəyyən etmək, xalqını yeni zəfərlərlə dolu qalibiyyətli gələcəyə aparan siyasəti təmin etməkdir.

Buna görədir ki, həyata keçirilən siyasətin nəticələri, ayrıca dövlətin uğurlar tarixinə çevriləndə sanki möcüzə baş verir. Milli lider həyatdan getsə də, onun siyasi xətti institutsionallaşır – siyasi idarəçilik nəzəriyyəsinə, alternativi olmayan dövlətçilik fəlsəfəsinə, milli quruculuğun nəzəriyyə və təcrübəsinə çevrilir. Daha dəqiq deyilsə, "əbədiyaşar milli quruculuq elmi" zirvəsinə yüksəlir. Hər gələn nəsil yenidən və yenidən bu siyasi irsi öyrənməli olur. Onların həyatda ən böyük nailiyyəti kimi yeni dövlətçilik, müstəqil respublika, yeni Konstitusiya, əvvəlki heç bir idarəçilik formasına bənzəməyən MİLLİ QURUCULUQ yolunun siyasi fəlsəfəsi sonrakı nəsillərə nemət və irs kimi qalır.

Buna görədir ki, Heydər Əliyev aramızdan getsə də, onun yaratdığı dövlətçilik fəlsəfəsi hər gün bizimlə qoşa, bizdən öndə addımlayır, yaşayır.

Dünya tarixinin təcrübəsi göstərir ki, böyük şəxsiyyətlərin ideyaları cəmiyyətdə baş verən hadisələrə çox ciddi təsir göstərir. Bu baxımdan, milli liderin dünyagörüşü, həyat təcrübəsi və siyasi ira-

dəsi inkişaf strategiyasının xüsusiyyətlərini şərtləndirir, ən çətin məqamlarda optimal seçimlər etməyə imkan verir.

XX əsrin sonu Azərbaycan xalqının həyatında taleyüklü bir dövrdür. Tarixin bu dövründə baş verən hadisələr dahi tarixi şəxsiyyəti – Heydər Əliyevi siyasi səhnəyə gətirmişdir. Dünya siyasi tarixində baş verən hadisələrin mürəkkəbliyi, bir quruluşa malik dövlətlərin məhvi, digərlərinin yaranması baxımından XX əsrin sonları heç bir dövrlə müqayisə edilə bilməz. Azərbaycanın mövcud olduğu coğrafiya, zəngin təbiəti, Şərq və Qərb arasında ortaq – sintez sivilizasiya missiyası ilə tarix boyu diqqət mərkəzində olmuşdur və belə bir dövlətin lideri olmaq daha da çətindir.

Heydər Əliyevin siyasi xidmətlərini dəyərləndirmək üçün ilk növbədə onun hakimiyyətə gəlişi zamanı mövcud olan dəyişiklik və inqilab dalğasının nə qədər güclü mənbələrdən yönəldildiyini yada salmaq kifayətdir. Xarici və daxili siyasi, milli gündəlikdə duran məsələlərin mürəkkəbliyi, anti-azərbaycançı qüvvələrin son dərəcə fəallaşması səhv etmək imkanlarını tükəndirmişdi.

Əsrin sonlarında sivilizasiya qarşısında duran problemlər həm tarixi miqyası, həm də mürəkkəbliyi baxımından demək olar ki, bütün dünya ölkələri üçün "yeni" problemlər idi. Onların başlıca spesifikası isə bu sahədə tətbiq edilə biləcək universal beynəlxalq təcrübənin olmaması idi. Başqa ölkələrin təcrübəsi isə konkret məkanların siyasi, mədəni-tarixi spesifikası ilə üz-üzə gəldikdə yeni-yeni problemlər spektrini şərtləndirirdi.

Milli dövlətin yaranmasında və inkişafında, milli birliyin və maraqların təmin edilməsində milli liderin tarixi rolu əvəzedilməzdir. Çünki bütün bu məsələlərin həlli onun şəxsi keyfiyyətinə, inamına və təcrübəsinə əsaslanır. Bu, inkaredilməz bir faktdır. Milli maraqlar millətin gələcək inkişaf məqsədlərinin təyin edilməsi ilə səciyyələnir. Dövlət başçısı, bu məqsədlərin və ona nail olmaq üçün vasitələrin seçimini, fəaliyyət planının hazırlanmasını təmin etməklə milli maraqların müəyyənləşməsində əsas rolu öz üzərinə götürür. O, riskləri və mövcud vasitələri dəyərləndirir, ölkənin xoşbəxt gələcəyini təmin edəcək yeni perspektivlər haqqında qərarlar verir.

Azərbaycan xalqının dövlətçilik tarixində mürəkkəb tərsələlər çox olmuşdur. Tarix boyu bütün çətinliklərə rəğmən heç bir qüvvə xalqımızın dövlətçilik arzularını, ənənələrini məhv edə bilməmiş, hər dəfə tarixi şəraitə müvafiq olaraq milli, müstəqil respublika yaratmaq yönündə səylər qarşısıalınmaz sel kimi yenidən baş qaldırmışdır.

Məhz, Heydər Əliyevin xidmətləri sayəsində Azərbaycanda dövlət müstəqilliyinin əsasları gücləndirildi. Bu illərdə xalqımız qeyri-adi cahanşümul tarixi proseslər içərisində oldu. Bir dövlət quruluşu yox oldu, yerində yeni milli dövlət yarandı, dünyanın siyasi xəritəsi kökündən dəyişdi. Bu siyasi xəritədə nüfuzu bütün dünyada etiraf edilən Azərbaycan adlı məmləkət müstəqilliyini bərpa etdi.

Məlumdur ki, 90-cı illərin əvvəlində Azərbaycanın daxilində və onun ətrafında yaranan siyasi vəziyyət o zaman hakimiyyətdə olan insanların şəxsi xüsusiyyətlərindən irəli gəlirdi.

Daxili çəkişmələr, Ermənistanın təcavüzü, ölkəni idarə edənlərin təyin etdiyi siyasətin doğurduğu fəsadlar böyük çətinliklər yaratmış, dövlət müstəqilliyinin taleyini sual altına almışdı.

Buradan aydın etmək olur ki, milli lider dövlətin özünütəsdiqində, beynəlxalq siyasətin formalaşmasında mühüm rol oynayan əsas amildir.

90-cı illərin çətin anlarında Ümummilli lider Heydər Əliyev Azərbaycanı böyük bəlalardan, dağılmaqdan xilas etdi. O, Azərbaycanın müstəqilliyinin reallaşmasında və möhkəmlənməsində, beynəlxalq nüfuzunun artmasında, iqtisadiyyatın dirçəlməsində əsas aparıcı tarixi şəxsiyyət idi.

XX əsrdə ikinci dəfə müstəqillik əldə etdikdən sonra Azərbaycanda demokratikləşmə milli inkişafın vacib faktoru kimi dövlət siyasətinin strateji prioritetinə çevrildi. 1995-ci ildə qəbul edilmiş müstəqil Azərbaycan Respublikasının ilk Konstitusiyası insan hüquqlarının, fikir plüralizminin, söz və məlumat azadlığının, vətəndaş cəmiyyəti institutlarının formalaşdırılması və inkişafına etibarlı zəmin yaratdı.

Suveren Azərbaycan dövlətinin yaradıcısı olan Ulu Öndərin siyasi portretini, ideal lider obrazını, zaman çərçivəsinə sığmayan şəxsiyyətini, milyonlarla dünya azərbaycanlılarının qürur ünvanı, cəmiyyət həyatının bütün sahələrində milli intibahın qarantı kimi sağlığında ikən əfsanəyə çevrilən, həyatının hər məqamı bizlər üçün örnək olan nadir dövlət xadimi kimi dərin elmi təhlilini bir yazı ilə əhatə etmək qeyri-mümkündür.

Azərbaycana həmişə yeni-yeni zəfərlər gətirəcək milli inkişafın bitkin nəzəri konsepsiyası, mütərəqqi irəliləyişin Azərbaycan modeli kimi təqdim edilmişdir.

Milli dövlətçiliyin təməl əsasları

Müasir Azərbaycanın otuz ildən artıq müddətdə dövlət quruculuğu, iqtisadi dirçəliş, ictimai-siyasi və sosial həyatda tərəqqi dövrünü əhatə edən bütöv bir epoxa Heydər Əliyevin adı ilə bağlıdır. Təkcə sovet hakimiyyəti illərində onun fəaliyyəti böyük bir təcrübə xəzinəsi, dövlət idarəçiliyi akademiyasıdır. Bu gün Azərbaycanın istifadə etdiyi iqtisadi, siyasi, elmi, hərbi, energetik, mədəni, ictimai və sosial potensial məhz həmin illərdə Heydər Əliyevin uzaqgörənliyi sayəsində yaradılmışdır. Məhz həmin illərdən xalqımızın şüurunda azərbaycançılıq ideyası həmişəlik hökm sürməyə başlamışdır.

Kommunist ideologiyasının şəriksiz hökm sürdüyü sovet dövründə "milli dövlət" anlayışı yasaq idi. Buna baxmayaraq, Heydər Əliyevin respublikaya bacarıqla rəhbərlik etməsi sayəsində Azərbaycan elitasının mənlik şüurunda "milli maraqlar" anlayışı dərindən kök saldı. Məhz sovet dövrü çərçivəsində milli maraqların real siyasətdə ardıcıl gerçəkləşməsi keçən əsrin 80-ci illərinin sonunda ölkədə milli hərəkatın genişlənməsi üçün zəmin hazırlamış, 1991-ci ildə dövlət müstəqilliyinin qazanılması üçün baza yaratmışdır.

Heydər Əliyev son dərəcə yüksək təhsilli və dərin biliklərə malik bir insan idi. Onun şəxsiy-

yətində Azərbaycan ziyalılarının bir neçə nəsli tərəfindən formalaşdırılmış milli ideallar sistemi ümumbəşəri dəyərlərlə ahəngdar şəkildə birləşmişdir. Özünün nadir siyasi istedadı sayəsində o, ümummilli dəyərlər və müqəddəs amallar haqqında təsəvvürləri milli dövlətçiliyin konkret fəlsəfi konsepsiyasında təcəssüm etdirməklə yanaşı, həm də bizim müasir Azərbaycan adlandırdığımız dövləti, onun bugünkü reallıqlarını və sabahkı günün etibarlı əsasını yarada bilmişdir.

Məlum olduğu kimi, ötən əsrin 60-cı illərinin sonunda keçmiş SSRİ-nin inzibati-ərazi vahidlərindən biri olan Azərbaycanın istər sosial-iqtisadi, istərsə də ictimai-siyasi həyatında təşviş doğuran tam tənəzzül meyilləri aşkar görünürdü. Sovet İttifaqının tərkibinə daxil olan başqa müttəfiq respublikaların diqqəti cəlb edən fasiləsiz inkişafı fonunda Azərbaycanda cəmiyyət həyatının bütün sahələrində geriləmə müşahidə olunur, mənfı meyillər və təzahürlər getdikcə daha dərin kök salır, hakimiyyət uğrunda səhnəarxası mübarizə ifrat dərəcəyə çataraq eybəcər formalar kəsb edir, respublikanın iqtisadi potensialının zəifləməsi isə xalqın milli-mənəvi birliyinə vurulan zərərdən heç də az olmayan təhlükəli miqyas alırdı.

Azərbaycanın ictimai-siyasi həyatında böhran xalqın mənəvi-psixoloji durumuna da mənfi təsir göstərirdi, respublika rəhbərliyində kosmopolit əhval-ruhiyyə hökm sürürdü. Milli kadrların hazırlanması, milli dilin düşünülmüş şəkildə inkişafı və onun tətbiq sahəsinin genişləndirilməsi, dövlət orqanlarında milli kadrların faizinin artırılması

istiqamətində heç bir ciddi addım atılmırdı. Siyasi amorfluq, təfəkkürdə və dövlətin idarə edilməsində durğunluq halları milli mənlik şüuruna, milli təfəkkürə və mentalitetə malik olan kadrlar yetişdirilməsinə ciddi əngəl idi.

Respublikanı bürümüş böhranın ən qısa müddətdə aradan qaldırılması, sağlam mənəvi-psixoloji ab-hava və ictimai ovqat yaradılması zərurəti ən ciddi, hətta qeyri-standart qərarlar qəbul olunmasını tələb edirdi. Lakin bundan daha vacibi çoxşaxəli dəyişikliklər və yenilənmə proseslərini həyata keçirməyə qabil olan şəxsiyyətin ölkə rəhbərliyinə gəlməsi idi. Respublikanın rəhbəri vəzifəsinə Heydər Əliyevin gəlişindən sonrakı dövrün tarixi yekunları ona dəlalət edir ki, Heydər Əliyevə üstünlük verilməsini təsadüf saymaq olmaz.

Respublikada yaranmış iqtisadi, sosial, mənəvi-psixoloji vəziyyət rəhbər seçimi məsələsinə xüsusi məsuliyyətlə yanaşmağı tələb edirdi. Rəhbərin şəxsi keyfiyyətlərinə, onun istedadına maksimum sərt tələbkarlıq olmasa, respublikanın qarşısında duran tarixi məsələlərin uğurla həll ediləcəyinə hər hansı zəmanət barədə danışmaq olmazdı. Təkcə bu səbəbdən 1969-cu ildə Azərbaycanda qəbul edilmiş siyasi qərar Heydər Əliyevin liderlik keyfiyyətlərinin, dövlətçilik təcrübəsinin və ustalığının etiraf edilməsi kimi qiymətləndirilməlidir. O tarixi vaxtdan ötən bir neçə onillik ərzində xalqımızın keçdiyi tərəqqi və azadlıq yolu bu həqiqətin əyani təsdiqi olmuşdur.

İndi tam qətiyyətlə demək olar ki, milli mənliyin ifadə edilməsinin bütün formalarının, Azərbaycanda

milli şüurun güclənməsinin geniş inkişafına stimul yaradan sürətli inkişaf strategiyasının seçilməsi və onun uğurla həyata keçirilməsi Heydər Əliyevin rəhbərlik fəlsəfəsinin ideya-siyasi prinsipinə çevrilmişdir. Bu fəlsəfənin əsası keçən əsrin 70-ci illərində qoyulmuşdur. Sübuta ehtiyac yoxdur ki, həyatın bütün sahələrində sürətli yüksəliş, istehsalın, elmin, mədəniyyətin, mənəviyyatın tərəqqisi, bir sözlə, Heydər Əliyev hakimiyyətə gələndən sonra respublikada ictimai-mənəvi ab-havanı səciyyələndirən bütün amillər əslində milli ruhun inkişafına, milli mənlik şüurunun və milli qürurun yüksəlişinə xidmət edən möhtəşəm planın tərkib hissəsinə çevrilmişdir.

Başqa imperiyalarla müqayisədə Sovet İttifaqını fərqləndirən cəhət ondan ibarət idi ki, bu ölkəyə daxil olan müttəfiq respublikalar iqtisadi cəhətdən bir-biri ilə six bağlı idi və onların heç biri ayrılıqda tam istehsal dövriyyəsinin infrastrukturuna, demək olar ki, malik deyildi. Digər tərəfdən, tarixi, milli mənəvi ənənələr, mədəni sərvətlər, xalqın inamı kimi dəyərlər keçmişin qalığı adlandırılır və vətəndaşlarımızın şüurunda bu dəyərlərin kökü kəsilir, insanları öz tarixi keçmişini unutmağa məcbur etmək cəhdləri göstərilir, bununla razılaşmayanlar isə təqib olunurdular. 1969-cu il iyulun 14-nə, yəni Heydər Əliyev Azərbaycan rəhbərliyinə gələnə qədər ölkəmiz və xalqımız bu acı mənzərə ilə üzləşmişdi.

Bununla əlaqədar qeyd etmək lazımdır ki, Heydər Əliyevin idarəçilik fəlsəfəsi onun sələflərinin və başqa müttəfiq respublikalardakı həmkarlarının idarəçilik fəlsəfəsindən əsaslı şəkildə fərqlənirdi.

O, Azərbaycanda hakimiyyətə Moskvanın canişini olmaq, respublikanı İttifaq üçün istismar obyektinə çevirmək, xalqı öz tarixi keçmişindən ayırmaq və "sovet xalqı"nın bir seqmentinə çevirmək üçün gəlməmişdi. Onun konkret missiyası, fəaliyyət proqramı Azərbaycana xidmət etməklə bağlı idi. O, respublikanın gələcəyini aydın təsəvvür edirdi. Nadir idarəçilik keyfiyyətlərinə, xarizmatik lider məziyyətlərinə, fitri istedada, böyük vətənpərvərlik hissinə malik olan Heydər Əliyev hələ xüsusi xidmət orqanlarında işlədiyi dövrdə sovet idarəetmə maşınının və bütövlükdə bu sistemin formalarını və məzmununu, onun bütün incəliklərini dəqiqliyi ilə öyrənmişdi. O, sovet bürokratik aparatının total nəzarəti altında Azərbaycanı inkişaf etdirməyə, hətta öz ideyalarını reallaşdırmaq üçün mərkəzin dəstəyini almağa çox gözəl nail olurdu.

Hakimiyyətdə olduğu elə ilk illərdə təxirəsalınmaz sosial-iqtisadi məsələləri həll edəndən sonra Heydər Əliyev SSRİ rəhbərliyinin Azərbaycanı, ilk növbədə, xammal əlavəsi kimi saxlamaq siyasətinin nəticələrini aradan qaldırmaq üçün respublikanın mənafelərinə cavab verən tarazlı milli iqtisadiyyat formalaşmasına yönəlmiş ardıcıl tədbirlər həyata keçirməyə başladı. Bu məqsədlə əsas diqqət Azərbaycanda maşınqayırma müəssisələri, olduqca zəngin yerli xammaldan məhsul hazırlanması üzrə digər sənaye obyektləri yaradılmasına yönəlmişdi. Bütün bunlar Azərbaycan xammal əlavəsindən müasir texnologiya əsasında hazır məhsul istehsalını həyata keçirən və onu ixrac edən respublikaya çevirməyə yönəlmiş uğurlu addımlar idi.

İqtisadiyyatda sürətli artım əvvəlki onilliklərdə yığılıb qalmış çoxsaylı problemlərin həlli üçün zəmin yaratmışdı. Bütövlükdə, 1970-1980-ci illərdə respublikanın inkişaf modelinin səciyyəvi cəhətlərindən biri həyatın ayrı-ayrı sahələrinin kompleks şəkildə inkişafı, irəliyə doğru harmonik hərəkətin təmin edilməsi idi. Heydər Əliyevin nəzərincə sosial-iqtisadi inkişaf konsepsiyasının təməl daşı belə bir müddəadan ibarət olmuşdur ki, istənilən iqtisadi artım həmişə xalqın sosial-iqtisadi ehtiyaclarının təmin edilməsi, insanların həyatının yaxşılaşdırılması məqsədlərinə tabe olmalıdır. Təsadüfi deyildir ki, 1970-1980-ci illərdə qısa müddətdə sürətli iqtisadi artım sosial sahənin də inkişafına təkan vermiş, həyat səviyyəsində və tərzində kəskin dəyişikliklərə səbəb olmuşdur.

Həmin illərdə qazanılmış bütün iqtisadi nailiyyətlər rəqəmlər şəklində ümumiləşdirildikdə görülmüş işlərin möhtəşəmliyi xüsusilə, aşkar nəzərə çarpır. Bu illər ərzində respublikanın milli gəliri 2,5 dəfə, sənaye istehsalının həcmi 2,7 dəfə artmış və ya əvvəlki 30 ildə istehsal edilmiş məhsulun ümumi həcmindən iki dəfə çox olmuşdur. Kənd təsərrüfatı məhsullarının ümumi həcmi də 2,7 dəfə artmışdır. İqtisadiyyatın inkişafına əsaslı vəsait qoyuluşunun həcmi əvvəlki 50 il üçün müvafiq göstəricidən 1,4 dəfə çox olmuşdur. Azərbaycan quruculuq, yaradıcılıq və tərəqqi dövrü keçirirdi, cəmiyyətin bütün təbəqələrində fasiləsiz inkişaf, irəliləyiş ruhu hökm sürürdü. Məhz bütün deyilənlərin nəticəsində yalnız Azərbaycan, həmçinin keçmiş SSRİ respublikalarından Rusiya və Ukrayna ittifaq büd-

cəsindən dotasiya almırdı. Tarixdən məlum olduğu kimi, iqtisadi müstəqillik, iqtisadi qüdrət millətin siyasi müstəqilliyinin bazasını təşkil edir. Bu baxımdan keçən əsrin 70-80-ci illərində Azərbaycanın iqtisadi sahədə qazandığı nailiyyətlər siyasi müsəqillik yolunda mühüm təməl hesab edilməlidir.

Bu kontekstdə Heydər Əliyevin sovet Azərbaycanına rəhbərliyi ölkənin gələcək müstəqillik perspektivinə hazırlığının ilkin mərhələsi kimi səciyyələndirilə bilər, əsas işlər isə 1990-cı illərin əvvəlində, Heydər Əliyev müstəqil Azərbaycanın Prezidenti olanda başlanmışdır. Milli tariximizin bu dövrü milli dövlətçilik quruculuğuna o vaxt zəruri olan qətiyyətli etatist yanaşmanın əsası, ilk mənbəyi, onun bazis konsepti isə Azərbaycan cəmiyyətinin siyasi, iqtisadi və sosiomədəni baxımdan səfərbər edilməsinin prioritet komponenti sayılan Realpolitik olmuşdur. Bu yanaşma Azərbaycanı siyasi maraqların toqquşma arenası və müxtəlif kliyentalist qrupların eksperimentlər keçirmək üçün bir meydança kimi görənlərin siyasi romantizmə və uzaqgörməzliyə əsaslanan səylərini alt-üst etdi.

Heydər Əliyev mürəkkəb geosiyasi dövrdə ölkəni vətəndaş qarşıdurması və hərc-mərclik, dərin iqtisadi və sosial-siyasi böhran vəziyyətindən çıxarmağa, onu sabit inkişaf səviyyəsinə qaldırmağa nail oldu.

1993-cü ildən 2003-cü ilə qədər olan onillik ən müxtəlif təhdidləri və təhlükələri əhatə edirdi. Gənc respublikaya təzyiq həddən artıq çox idi. Heydər Əliyevin siyasi nüfuzu və onun vaxtında qəbul etdiyi qərarlar Azərbaycanın simasız dövlət vəziyyətinə düşməsi təhlükələrini heçə endirdi.

Bu on il ərzində Azərbaycan dövlətçiliyinin bərqərar olması, demokratik tranzit və həmrəyliklə paralel surətdə genişmiqyaslı iqtisadi islahatlar, ölkənin siyasi sisteminin və sosial münasibətlərin humanistləşdirilməsi yolu keçmişdir.

Dövlətçilik və milli şüur, iqtisadiyyat və sosial quruluş, siyasi sistem və identiklik staqnasiya və reqressiya dövrünü yaşadığı o tarixi vaxtdan təxminən 20 il keçəndən sonra cəsarətlə demək olar ki, 1993-2003-cü illərdə Heydər Əliyevin Prezident olduğu on ilin əsas uzunmüddətli tərkib hissələri aşağıdakılar olmuşdur:

– ölkənin həyatında çox zəruri olan ictimai-siyasi sabitləşmə, demokratik prinsiplərin və təsisatların yaradılması və təkmilləşdirilməsi;

– dövlət aparatının möhkəmləndirilməsi və iş qabiliyyətli dövlət idarəçilik təsisatlarının formalaşdırılması;

– cəmiyyətdə yeni davranış norma və stereotiplərinin yaradılması, yeni – açıq və demokratik vətəndaşlığın formalaşdırılması;

– 1994-cü ildən etibarən Qarabağ cəbhəsində atəşkəs rejimi şəraitində iqtisadi inkişafın əsas prioritetlərinin formalaşdırılması;

– müstəqil dövlətin neft strategiyasının yaradılması, bu strategiyanın əsası olan "Əsrin müqaviləsi" sazişinin imzalanması, ölkənin əsas regional energetik aktora transformasiyasının başlanması;

– "Böyük İpək Yolu" layihəsində fəal iştirak etməklə Azərbaycanın regional logistik mərkəz kimi rolunun dəyişməsi;

– həyat qabiliyyətli tarazlı xarici siyasət modelinin formalaşdırılması;

– müasir və döyüş qabiliyyətli ordunun yaradılması və s.

Heydər Əliyev həm nəzəri səviyyədə, həm də praktikada norma və dəyərlər məcmusunu həyata keçirmiş, bu məcmu həyat qabiliyyətli demokratiya modelinə çevrilmişdir. Heydər Əliyevin Prezident olduğu dövrdə ölkənin müasir inkişafı üçün möhkəm təməl qoyulmuş, Azərbaycanın qərarlaşmış dövlət kimi qəbul olunması təmin edilmiş, gələcəkdə Azərbaycanın müasir dünyaya inteqrasiyası üçün şərait yaradılmışdır.

Dövlət dilimizin böyük himayədarı

Azərbaycan dilinin dövlət dili kimi yaşaması,
möhkəmlənməsi, inkişaf etməsi də bizim
ən böyük nailiyyətlərimizdən biridir.
Bu, təkcə dil məsələsi deyil,
həm də azərbaycançılıq məsələsidir.

Heydər Əliyev

Bütövlükdə Heydər Əliyev epoxası yüksəliş epoxasıdır. İqtisadiyyatdan başlamış mədəniyyətə qədər müxtəlif sahələrdə yüksəliş. Məsələn, hazırda hamının obyektiv olaraq, Azərbaycanda müasir renessans dövrü kimi qiymətləndirdiyi 1969-1980-ci illər o vaxta qədər xalqın qəlbində və ən ülvi niyyətlərində illərlə gizli qalan milli ideyanın, azadlıq və müstəqillik, suveren Azərbaycan dövləti ideyasının dirçəldilməsi, onun ideya-mənəvi özək və gələcək milli azadlıq hərəkatının hərəkətverici qüv-

vəsi səviyyəsinə yüksəlməsi üçün əlverişli zəmin yaratmışdır.

Bu illərdə Azərbaycanda milli mənlik şüuru xüsusilə güclənmişdi. Heydər Əliyev bu prosesi çox böyük həssaslıq və uzaqgörənliklə idarə edir və tənzimləyirdi. Sovet sisteminin güclü təzyiqinə baxmayaraq, Azərbaycanın gələcək milli dövlətçiliyi naminə mühüm addımlar atılırdı. Bu fəaliyyətin ən mühüm istiqamətlərindən biri Heydər Əliyev tərəfindən yaradılmış milli dövlətçilik, xalqımızın ümummilli mənəvi birliyi konsepsiyasında mühüm yer tutan Azərbaycan dilinin hərtərəfli dəstəklənməsi olmuşdur.

Mübaliğəsiz deyə bilərik ki, XX əsrin son 30 ilində Azərbaycan dilinin hərtərəfli inkişaf etməsi və zənginləşməsi, onun dövlət dilinə, rəsmi sənədlərin dilinə çevrilməsi, gündəlik həyatda, praktikada bu dildən istifadə edilməsi, beynəlxalq münasibətlər, dünya diplomatiyası sahəsində tətbiqi və onun hörmət qazanması – bütün bunlar Heydər Əliyevin yorulmaz və çoxşaxəli fəaliyyətinin, daimi diqqət və qayğısının nəticəsi olmuşdur. O, Azərbaycan dilinin inkişaf etməsi, onun insanların mənəvi-əxlaqi və siyasi dünyagörüşünün əsasına çevrilməsi, cəmiyyətimizdə layiqli yer tutması üçün nə etmək lazım olduğunu çox gözəl bilir və hiss edirdi.

Bu halda onu da unutmamalıyıq ki, Azərbaycan dili çox əlverişsiz inkişaf şəraitində olduğu bir vaxtda ilk dəfə bu problemə Heydər Əliyev müraciət etmişdir. Məlumdur ki, dil ona qarşı zorakılığa dözmür, bu və ya digər dilin istifadəsi və inkişafı sahəsini məhdudlaşdırmaq arzusuna əsaslanan hər

hansı siyasi kataklizmlərə son dərəcə həssas reaksiya verir.

Bir sıra geosiyasi səbəblər üzündən mürəkkəb tarixi proseslərin yol ayrıcında olmuş Azərbaycan xalqı müxtəlif etnosların, mədəniyyətlərin və konfessiyaların qarşılıqlı nüfuzu və bir-birini qarşılıqlı zənginləşdirməsi şəraitində bütün çoxəsrlik tarixi boyunca dilə son dərəcə qayğıkeş münasibət bəsləmişdir. Çox vaxt bu dil bilinqvizm şəraitində mövcud olmuş, lakin xalq həmişə xüsusi məsuliyyət hissi ilə yanaşmışdır ki, ən çətin və qarışıq dövrlərdə Azərbaycan dili qorunsun və inkişaf etsin. Heydər Əliyev əsrlərin və minilliklərin kəsişməsində bu tarixi prosesləri qiymətləndirərək deyirdi ki, biz hamımız əvvəlki nəsillərin fədakarlığına görə minnətdar olmalı və fəxr etməliyik, ən əvvəl ona görə ki, tarixi kataklizmlər dövründə Azərbaycan dili məhv olmamış, inkişaf və zənginləşməkdə davam etmişdir.

Sovet ideologiyasının ən qızğın məddahları bu ideologiya çərçivəsində milli dillərin hər birini yeni tarixi birliyin – vahid dili rus dili olan sovet xalqının formalaşması və təşəkkülü yolunda yalnız maneə hesab edirdilər. Biz Heydər Əliyevin Azərbaycan dilinin inkişafı və zənginləşməsi ilə əlaqədar fədakar fəaliyyətini məhz mürəkkəb tarixi şərait prizmasından qiymətləndirməliyik.

1960-cı illərin axırlarından respublikaya başçılıq edən Heydər Əliyev özünün zəngin siyasi təcrübəsi, yüksək intellektual qabiliyyəti, milli mədəniyyətimizi, mənəvi meyarlarımızı dərindən bilməsi sayəsində milli dilin inkişafına və tətbiqinə şərait

yaratmış uzunmüddətli siyasət işləyib hazırlamış və bütün əngəllərə baxmayaraq, durmadan həyata keçirmişdir.

O, mərkəzdən asılı olan, qapalı sistemdə yaşayan və üstəlik, müsəlman-türk olan respublikamızda milli dil siyasətini olduqca dərindən ölçülüb-biçilmiş şəkildə həyata keçirirdi. Heydər Əliyev heç vaxt ötəri imic yaradan tələsik addımlar atmırdı. Onun bu keyfiyyəti milli dilə münasibətdə daha parlaq şəkildə ifadə olunmuşdu. Hər bir vətəndaş və ilk növbədə, yaradıcı ziyalıların nümayəndələri dilə çox ağrılı, həssas münasibət göstərirdilər. O hər kəsin diqqətini bu problemə cəlb etməklə onu gündəmə çıxardı və təkcə rəhbərlik səviyyəsində deyil, həm də zəngin tarixə və mədəniyyətə malik olan bütün xalq səviyyəsində həll etdi.

Beləliklə, Azərbaycan dilinin dövlət dili statusu qazanması məsələsi, həmçinin Azərbaycan cəmiyyətində onilliklər boyu yığılıb qalmış iqtisadi, siyasi və sosial problemlər yalnız keçən əsrin 60-cı illərinin sonunda Heydər Əliyev ölkə rəhbərliyinə gələndən sonra bütün kəskinliyi və aktuallığı ilə gündəmə çıxarılmışdır.

Yaşlı nəslin yaxşı yadındadır ki, onilliklərlə həm Azərbaycanda, həm də digər sovet respublikalarında bilinqvizm məişətdə məcburi şəkildə tətbiq edilirdi. Dövlət müəssisələrində isə rus dilinin geniş istifadəsi hər vasitə ilə təşviq edilir, bu isə milli dilin dövlət dili kimi inkişafı yolunda ciddi əngəllər yaradırdı.

Keçən əsrin 70-ci illəri Azərbaycan dövlətinin tarixinə iqtisadiyyatın, sənayenin, tikintinin, rabitə,

nəqliyyat, sosial və mənəvi həyatın, mədəniyyətin bütün sahələrinin sürətli inkişafı dövrü kimi daxil olmuşdur. Bu dövr həm də onunla səciyyəvidir ki, ölkədə bilinqvizmin qanuniləşdirildiyi şəraitdə Azərbaycan dili tədricən rus dilinin kölgəsindən çıxmağa başlamış, ictimai şüurda və milli dövlətçilik quruculuğunda öz yerini tutmuşdur.

Bu proses təkamül yolu ilə gedirdi və onu dayandırmaq, yaxud geri döndərmək mümkün deyildi. Həmin dövrə qədər yalnız nominal mənada Azərbaycan Respublikasının dövlət dili sayılan Azərbaycan dili artıq kağız üzərində deyil, real həyatda layiq olduğu yeri tutmağa başlamışdır. Bu illərdə respublikada tamdəyərli ikidillilik şəraitinin bərqərar olmasının tərəfdarı kimi çıxış edən Heydər Əliyev həm rəsmi, həm də qeyri-rəsmi tədbirlərdə Azərbaycan dilində nitq söyləməkdən və danışmaqdan çəkinmirdi. Bu isə mahiyyət etibarilə ana dilinin nüfuzunun artmasını təsdiq edirdi. Yaradıcı təşkilatların, xüsusən Yazıçılar İttifaqının qurultaylarında, genişmiqyaslı yubiley tədbirlərində çıxış edərkən Heydər Əliyev Azərbaycan dilində səlis və gözəl danışmaq bacarığını nümayiş etdirir, bununla da ziyalılarımızın diqqətini ana dilinin inkişaf etdirilməsinə cəlb edirdi. Şübhəsiz, bu da öz növbəsində milli mənlik şüurunun sürətlə inkişaf etməsinə şərait yaradırdı.

Ana dilinə münasibətin ifrat dərəcədə siyasiləşdirildiyi və çox vaxt əsassız siyasi ittihamlar üçün zəmin olduğu illərdə Heydər Əliyev Azərbaycan dilinin məişət və ədəbi dil səviyyəsindən dövlət dili səviyyəsinə çatdırılmasına yönəlmiş fəaliyyətlə

kifayətlənməyib, həm də öz şəxsi nümunəsi ilə ana dilimizin nüfuzunu artırır, onun elmi cəhətdən öyrənilməsi, geniş yayılması üçün stimul yaradırdı. Məsələn, onun təşəbbüsü ilə respublikanın bir qrup dilçi alimi Azərbaycan dilinin tədqiqi sahəsində araşdırmalara görə, Dövlət mükafatına layiq görülmüş, respublikada ilk dəfə müstəqil Dilçilik İnstitutu yaradılmışdır. Bu da ana dilinin ictimai-siyasi nüfuzunun möhkəmlənməsinə kömək edir və dilin tarixinə, dialektologiyaya və bir çox digər problemlərə dair fundamental tədqiqatlar aparılmasına imkan verirdi.

Əlbəttə, respublikada milli mənlik şüurunun inkişafı prosesi sovet rəhbərliyinin müqaviməti ilə üzləşdiyi, milli mənlik şüurunun artmasına imkan yaradan yeni ab-hava və təşəbbüslərin qarşısı sərt şəkildə alındığı bir şəraitdə yuxarıda sadaladıqlarımızın hamısının həyata keçirilməsi Heydər Əliyevdən böyük cəsarət, qətiyyət, prinsipiallıq və dönməzlik tələb edirdi. Lakin Heydər Əliyevin ölkə rəhbərliyinə gəlməsi ilə Azərbaycanda başlanmış milli-mədəni dirçəliş heç də həmişə müsbət qarşılanmır və müxtəlif dairələr, xüsusilə ermənilər tərəfindən əsassız siyasi ittihamlar, yalan və böhtan kampaniyaları ilə müşayiət olunurdu. Onlar bütün mümkün vasitələrdən istifadə edərək, ittifaq rəhbərliyini Azərbaycana qarşı yönəldir, türkdilli azərbaycanlılara etimadsızlıq və şübhə yaratmağa çalışırdılar.

Məhz ana dili məsələsində Heydər Əliyevin prinsipiallığı və qətiyyəti sayəsində, onun aktiv fəaliyyəti nəticəsində Azərbaycan Respublikasının

1978-ci ildə qəbul edilmiş Konstitusiyasına Azərbaycan dilinin Azərbaycan Respublikasının dövlət dili olması haqda məşhur 73-cü maddə daxil edildi. O dövrdə milli dilə Konstitusiya səviyyəsində dövlət dili statusu vermiş üç keçmiş sovet respublikasından biri və yeganə müsəlman respublikası Azərbaycan idi.

Şübhəsiz, bu uzaqgörən tarixi addım Heydər Əliyevin ana dilinə dövlətçilik münasibətinin və siyasi qətiyyətinin parlaq ifadəsi idi. Heydər Əliyev o dövrü belə xatırlayardı: "Bu maddə Moskvada çox böyük etiraza səbəb oldu. Belə izah edirdilər ki, başqa respublikalarda bu yoxdur, buna ehtiyac yoxdur... Ancaq o vaxt mən Sovetlər İttifaqının rəhbərliyi, Kommunist Partiyasının rəhbərliyi ilə çox gərgin danışıqlar aparırdım. Sübut etməyə çalışdım ki, biz dövlət dilinin Azərbaycan dili olduğunu da öz konstitusiyamıza yazmalıyıq və yazacağıq ".

Bu gün inamla demək olar ki, 1970-1980-ci illərdə Heydər Əliyevin milli dil sahəsində apardığı fəal siyasət Azərbaycanda milli dirçəliş, milli mənlik şüurunun inkişafı prosesini sürətləndirmiş və mahiyyət etibarilə Azərbaycan xalqını milli müstəqillik və milli dövlətçilik qazanmağa hazırlamışdır. Müstəqillik bərpa ediləndən sonra isə Azərbaycan dili xalqımızın ictimai-siyasi, sosial-iqtisadi və elmi-mədəni həyatında rəsmi dövlət dili kimi müstəsna əhəmiyyət kəsb etməyə baş- lamışdır.

Prezident Heydər Əliyevin müstəqil Azərbaycan dövlətinə rəhbərlik etdiyi ilk günlərdən etibarən yeni tarixi şəraitin ruhuna və tələblərinə uyğun olaraq Azərbaycan dilinə göstərilən diqqət və qayğı

həm siyasi, həm də praktiki baxımdan fərqlənirdi. Əvvələn, bir fakt göz qabağında idi ki, Azərbaycan dili ölkənin şəriksiz və qeyd-şərtsiz dövlət dili olmuşdur. Müstəqillik illəri Prezidentin ana dilini nə dərəcədə mükəmməl bilməsini və onun imkanlarından həm öz çıxışlarında, həm də əhali ilə görüşlərində necə bacarıqla istifadə etməsini göstərdi. Digər tərəfdən, Prezident Heydər Əliyevin yorulmaz fəaliyyəti sayəsində Azərbaycan dili daim dövlətlərarası münasibətlərdə dilinə, siyasi dialoq və diplomatik danışıqlarda istifadə edilmiş, onlarca ölkədə səslənmiş və hər yerdə dövlət başçısının öz ana dilinə məhəbbətini əks etdirmişdir.

Heydər Əliyevin "Dövlət dilinin tətbiqi işinin təkmilləşdirilməsi haqqında" və "Azərbaycan Respublikasında dövlət dili haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsinə dair" fərmanları sayəsində ədəbi dilimizin fəaliyyət sahəsi daha da genişlənmiş, onun müxtəlif üslublarının potensialı bir daha aşkar edilmiş, bütövlükdə bizim dil mədəniyyətinin qarşısında yeni üfüqlər açılmışdır.

Müstəqillik illərində Heydər Əliyev ana dilinə münasibətini, televiziya və informasiya texnologiyaları da daxil olmaqla, həyatımızın bütün sahələrində Azərbaycan dilinin mövqeyinin möhkəmləndirilməsinə dair xüsusi fərmanlarda və qərarlarda son dərəcə aydın ifadə edərək, eyni zamanda, öz çıxışlarında da bu mövzuya müraciət etmişdir. Onun bu mövzuda çoxsaylı fikirlərindən birini xatırlatmaq istərdik: "Millətin milliliyini saxlayan onun dilidir. Şübhəsiz ki, musiqi də,

ədəbiyyat da, ayrı-ayrı tarixi abidələr də millətin milliliyini təsdiq edir. Amma millətin milliliyini ən birinci təsdiq edən onun dilidir. Əgər Azərbaycan dili olmasa, Azərbaycan dilində ədəbiyyat da olmaz. Azərbaycan dili olmasa, Azərbaycan dilində mahnılar olmaz, musiqi olmaz. Bunların hamısı bir-birinə bağlıdır".

Müasir mərhələdə siyasi mübarizədə və dövlətin idarə edilməsində dil amilindən Heydər Əliyev kimi ustalıqla istifadə edə bilən başqa bir dövlət başçısı, başqa bir siyasi lider göstərmək çətindir. Bu, ilk növbədə, onun ana dilini, öz xalqının arzu və istəklərini dərindən bilməsi ilə izah edilir. Bir dəfə o demişdir: "Mən hər bir dilə öz hörmət və ehtiramımı bildirirəm. Amma hesab edirəm ki, öz dilimizlə – Azərbaycan dili ilə hər birimiz fəxr edə bilərik. Çünki bu, zəngin dildir, artıq dünyada tanınmış dildir. Xalqımızın adı da tanınıb, respublikamızın adı da tanınıb, dilimizin adı da tanınıb. Bu, reallıqdır".

İnamıla demək olar ki, Heydər Əliyev özünün çoxillik yorulmaz, titanik fəaliyyəti ilə həm Azərbaycan dövlətinin, həm də Azərbaycan dilinin nüfuzunu yüksəltmişdir. Məhz onun müdrik rəhbərliyi ilə Azərbaycan dili dünyanın siyasi xəritəsində öz yerini tutmuş dövlətimizin rəsmi dilinə çevrilmişdir.

Burada xatırlatmaq yerinə düşər ki, 1992-ci ildə Azərbaycanda bir sıra konstitusiya və hüquq normaları pozulmaqla Azərbaycan dilinin adının dəyişdirilməsi haqqında qərar qəbul edilmişdi. Bu, həmin təşəbbüsün müəlliflərinin təfəkküründən

məhdudluğuna, onların məsuliyyətsizliyinə və bu addımın siyasi nəticələrini anlamamasına dəlalət edirdi. Lakin o vaxt da xalq öz seçimi ilə Heydər Əliyevə Azərbaycan dövlətində ən yüksək hüquqlar verəndə də o, səhvin düzəldilməsi üçün birbaşa inzibatçılıq yolu ilə getmədi. Elmi tədqiqat müəssisələrində, ali məktəblərdə, Elmlər Akademiyasında çoxlu müzakirələr ke- çirildi.

Bu diskussiyanın gedişində sırf elmi arqumentlər prioritet əhəmiyyət kəsb edirdi. Bununla belə, son söz yenə xalqa verildi. Dilin adının özü yeni konstitusiya layihəsində əks etdirildi və referenduma çıxarıldı. Beləliklə, dünyada geniş yayılmış "Azərbaycan dili" anlayışının qanuni yaşamaq hüququ ona qaytarıldı. Bu halda dövlətimizin başçısı haqlı olaraq qeyd etmişdir ki, belə bir qərar qəbul edilməsi "həm bizim keçmişimizə böyük hörmət, həm də gələcək nəsillər üçün böyük dəyərdir. Hesab edirəm ki, biz çox düzgün və əsaslandırılmış qərar qəbul etmişik".

1991-ci ildə müstəqilliyimizin bərpası nəticəsində Azərbaycan dilinin adı haqqında yaranmış diskussiya Azərbaycan cəmiyyətində "biz kimik?" sualı ətrafında gedən debatların təzahürü idi. 1990-cı illərin lap əvvəlində kollektiv identifikasiya formalarından biri – etnik identifikasiya ümumazərbaycan identikliyinin bu komponentinin yetmiş il ərzində rədd edilməsinə cavab kimi prioritet əhəmiyyət kəsb etdi.

Lakin respublikada yaşayan millətlərin heç də hamısı türk etnikliyinin daşıyıcıları deyildi və buna görə də identifikasiyanın bu formasının qəti seçimi cəmiyyətin bütövlüyünə mənfi təsir göstərirdi. Azər-

baycanlıların etnik və dil identifikasiyası barədə debatlarda türkçülüyə üstünlük verilməsi cəmiyyətin sabitliyini laxladır, onu etnik əlamətə görə parçalanmaya sövq edirdi. Yalnız azərbaycançılığı vətəndaşlığın dövlət forması kimi etniklikdən üstün tutmuş Heydər Əliyevin bu prosesə vaxtında müdaxilə etməsi problemin kəskinliyini aradan qaldırdı. Bu halda millətin dövlətin adı ilə eyniləşdirilmiş adı saxlandı.

Beləliklə, Heydər Əliyevin rəhbərliyi ilə müstəqil Azərbaycan Respublikasında millətin özünütəsdiqi üçün çox vacib olan, onun hələ keçən əsrin 70-ci illərindən başladığı siyasət uğurla davam etdirildi – dilimizə tamdəyərli dövlət dili statusu verilməsi və ondan dövlət idarəçiliyinin və ictimai həyatın bütün sahələrində fəal istifadə olunmasının təmin edilməsi vəzifəsi həyata keçirildi. Bu, yalnız ardıcıl, çoxillik və ən başlıcası hərtərəfli düşünülmüş, ölçülüb-biçilmiş dövlət siyasəti sayəsində mümkün oldu.

Milli intibah

Xalq heç vaxt öz kökünü yaddan çıxarmamalı, öz tarixini öyrənməli, milli mədəniyyətindən heç zaman ayrılmamalıdır.

Heydər Əliyev

Geniş yayılmış belə bir ifadə var: ölkələr də insanlar kimidir. Həqiqətən də, gizli, naməlum alın yazısı bəzən onları sevinc və xoşbəxtlikdən məhrum edir, ağır imtahanlara çəkir. Ölkələr zəifləyir,

xalqlar alçaldılır, fəlakətli təfriqə fazası yaşayır, tarixi oriyentirlərini itirirlər. Azərbaycanın ən yeni tarixində – 1969-cu və 1993-cü illərdə, Heydər Əliyev həm birinci və həm də ikinci dəfə ölkə rəhbərliyinə gələndə də belə olmuşdu. Bu, ictimai münasibətlərin gözlənilmədən kəskinləşməsi, dövlət idarəçiliyinin fundamental əsaslarının dağılması, düşüncələrdə və cəmiyyətin mənəvi dayaqlarında ixtilaf məqamları idi.

Heydər Əliyev iki dəfə öz ölkəsinin dövlət gəmisini dərin tarixi sarsıntılar zolağından keçirə bilmiş, onun milli dəyərlərini, insanların mənəvi sağlamlığını, özünə inamını qoruyub saxlamışdır. Azərbaycan tarixində o, iki dəfə siyasətdə və dövlət idarəçiliyində bəsitliyə, səriştəsizliyə və primitivliyə "yox" deməyi bacarmışdır. Heydər Əliyev onu tənqid edənlərdən və siyasi opponentlərindən fərqli olaraq ölkənin siyasi, iqtisadi və ictimai həyatının əsasını müəyyənləşdirən bir çox problemlərin həlli yollarını tapmışdır.

Onun şəxsiyyətinin və fəaliyyətinin mahiyyətini dərk etmək bir çox onilliklər ərzində Azərbaycan ətrafında baş verən hadisələrin məğzini, mürəkkəb ümummilli problemlərin həlli yollarını aydınlaşdırır. O, əzmli işi ilə sübut etdi ki, dünyanı yalnız böyük dövlətlər idarə etmir, rəyləri ilə hesablaşılan kiçik xalqlar da vardır. O, öz şəxsi nümunəsində azərbaycanlıların mətin iradəyə və sarsılmaz ruha, şanlı tarixi yol keçmiş xalqının böyük energetik və intellektual potensiala malik olduğunu bütün dünyaya nümayiş etdirdi.

Qeyd edildiyi kimi, 1960-cı illərin sonlarında Heydər Əliyev birinci dəfə ölkə rəhbərliyinə gələndə Azərbaycanda sosial-iqtisadi həyatın bütün sahələrində geriləmə var idi, respublikanın SSRİ-nin perspektivsiz əyaləti olması fikri formalaşmışdı. Hakimiyyətə yaxın dairələr səviyyəsində fikir var idi ki, məşhur neft yataqları öz əvvəlki əhəmiyyətini itirmişdir və neftə istiqamətlənmiş respublika iqtisadiyyatı tənəzzülə məhkumdur.

İqtisadiyyatı dərin və uzunmüddətli böhran keçirən respublikanı bu ağır vəziyyətdən çıxarmağın yollarını tapmaq, onun prinsipcə yeni konseptual səviyyədə inkişaf planını işləyib hazırlamaq, xalq təsərrüfatında əsaslı struktur dəyişiklikləri aparmaq, təsərrüfatçılıqda və iqtisadi həvəsləndirmədə yeni metodlar tətbiq etmək zərurəti yaranmışdı. Bununla belə, 1970-ci illərdən başlayaraq Azərbaycan iqtisadiyyatın sürətli inkişafı və iqtisadi potensialın gücləndirilməsi ilə bərabər, demək olar ki, daxildə tədriclə təkamülün tarixən növbəti mərhələsi kimi şərtləndirilmiş müstəqilliyə və istiqlaliyyətə hazırlaşırdı.

Heydər Əliyevin müstəqilliyə nail olmağa yönəlmiş strateji proqramında diqqəti cəlb edən məhz odur ki, mənəvi, bədii və estetik təkamül iqtisadiyyatda parlaq nailiyyətlər və insanların rifahının keyfiyyətcə yaxşılaşması ilə uzlaşaraq vahid kompleksdə reallaşır. O, Azərbaycan xalqının potensialının inkişafı, onun identikliyinin və milli özünüdərkinin formalaşması üçün milli mədəniyyətin əhəmiyyətini həmişə gözəl başa düşürdü.

Yaxşı məlumdur ki, milli mədəniyyət millətin maddi və mənəvi dəyərlərinin məcmusu kimi cə-

miyyətin, dövlətin həyat fəaliyyətinin praktik olaraq bütün sahələrində, onun sosial təsisatlarının təşkilində, həmçinin milli ənənələrdə, mənəvi dəyərlər sistemində, düşüncə tərzində, dil xüsusiyyətlərində və dində özünü göstərir. Milli mədəniyyətin məhz, həmin milli birlik üçün səciyyəvi qəbul edilən spesifik elementlər, eyni zamanda, differensasiya və inteqrasiya funksiyalarını yerinə yetirir. Bununla yanaşı, milli mədəniyyətin yaranmasında başlıca rolu dövlətinin mənəvi və siyasi inkişafı üçün məsuliyyəti öz üzərinə götürən millətin yaradıcı elitası oynayır.

Eyni zamanda, tarix göstərir ki, milli mədəniyyətin formalaşması çox zaman millətin və milli dövlətin təşəkkül tapmasını qabaqlayır. Bu halda milli mədəniyyət diferensiasiya və inteqrasiya funksiyaları ilə birlikdə gələcək milli dövlətçiliyin bünövrəsi rolunu oynamağa başlayır.

1969-cu ildə hakimiyyətə gələn Heydər Əliyev iqtisadiyyatla yanaşı, məhz bu bünövrəni qurmağa başladı. Bir tərəfdən o, keçmiş SSRİ-də, sovet və partiya həyatında hökm sürən bütün normalara son dərəcə dəqiq riayət edirdi. Digər tərəfdən isə o, sovet mədəniyyətinin ənənəvi "formaca milli, məzmunca sosialist" formuluna tamamilə yeni məna verə bilmişdi. O, hər nə edirdisə formal olaraq, marksizm-leninizm ideologiyasının tələblərinə uyğun idi. Lakin o, köhnə, standart stereotiplərə elə bir şey tətbiq edə bilmişdi ki, həmin illərdə bunu başa düşmək və dürüst ifadə etmək çətin olsa da, son dərəcə dəqiq nəticələrə gətirib çıxarırdı.

SSRİ-nin digər respublikalarında rejimin əleyhinə çıxan ayrı-ayrı elm və mədəniyyət xadimlərinin təqibə məruz qaldığı və sıxışdırıldığı bir vaxtda, Azərbaycanda ziyalılara yaradıcılıq üçün, fikirlərini azad ifadə etmək, cəmiyyətdə, mədəniyyətdə baş verən prosesləri öz düşündükləri kimi yazmaq, əslində isə milli-mənəvi dəyərlərin təsdiq olunmasına aparan yolların axtarılması üçün şərait yaradılmışdı. Azərbaycanda "dissident"axtarışları aparılmırdı. Bu da şairlərə, yazıçılara, incəsənət xadimlərinə milli ruhda, milli tarixə və mədəniyyətə uyğun əsərlər yaratmağa imkan verirdi.

O, nəinki milli ruhun dirçəlməsinə, müasiri olduğu Azərbaycan mədəniyyətinin inkişafına nail olmuşdu, həm də bütün ziyalıların, bütün Azərbaycan xalqının diqqətini tarixi və mədəni qaynaqlara yönəltmişdi. Biz o illərdə nadir mədəniyyətimizin bütün laylarını – Azərbaycan dilini, Azərbaycan ədəbiyyatını, Azərbaycan tarixini, Azərbaycan musiqisini özümüz üçün sanki yenidən kəşf edirdik, yenidən dərk edirdik.

Eyni zamanda, Heydər Əliyev tərəfindən atılan ilk addımlar olduqca sadə idi – o, müntəzəm olaraq Azərbaycanın tanınmış şəxsiyyətlərinin yubileylərinin keçirilməsinin əsasını qoydu. Bu, formal hadisə deyildi, bədii əsərləri milli dəyərlərin təsdiqlənməsinə hədəflənən Azərbaycan mədəniyyəti klassiklərinin yaradıcılığının tarixinə və mahiyyətinə əsl müraciət idi. Həmin dəyərlər Heydər Əliyev siyasətinin prioritetini təşkil edirdi. Yubileyləri təntənə ilə qeyd edilən Azərbaycan mədəniyyəti nümayəndələrinin bir çoxunun taleyüklü problemlərlə, xalqın keçmişi

və gələcəyi ilə bağlı mühüm konseptual fikirləri bu və ya digər formada şərh edilir, təhlil olunur və sistemləşdirilir, son nəticədə böyüməkdə olan nəslin sərvətinə çevrilərək, onların yeni təfəkkür və dünyagörüşünün əsasını formalaşdırırdı.

O illərdə ən çox diqqət yetirilən, Azərbaycan KP MK-nın birinci katibinin himayəsində olan sahələrdən biri də tarix elmi idi. 1969-cu ilə qədər olan Azərbaycan tarixi tamamilə təhrif edilmiş, saxtalaşdırılmış mənbələr və sovet ideologiyası tərəfindən "zənginləşdirilmişdi". Tarix elmi məhz Heydər Əliyevin sayəsində ciddi dəstək və impuls qazandı, tarixçi alimlərə keçmişimizi dəqiq öyrənmək, elmi cəhətdən işıqlandırmaq üçün lazımi şərait yaradıldı. Milli bənzərsizliyimiz, xalqımızın formalaşma tarixi kimi mühüm məsələlər Heydər Əliyevin bilavasitə nəzarəti altında ciddi elmi tədqiqatların predmeti oldu.

Azərbaycanın şöhrətini yaymağa, onun elmini və mədəniyyətini, adət və ənənələrini, dünyada tanınmış şəxsiyyətlərini təbliğ etməyə xidmət edən genişmiqyaslı tədbirlər Heydər Əliyevin titanik fəaliyyətinin daha bir istiqaməti idi. Tarixi şəxsiyyətlərin adının əbədiləşdirilməsi, tanınmış mədəniyyət xadimlərinə fəxri adların verilməsi, keçmiş sovet respublikalarında, xarici ölkələrdə Azərbaycan mədəniyyəti və incəsənəti günlərinin təşkil edilməsi bütün dünyaya göstərdi ki, Azərbaycan təkcə neft, pambıq və üzüm diyarı deyil, həm də qədim və yüksək mədəniyyətə malik olan ölkədir.

Azərbaycanın təkcə SSRİ çərçivəsində deyil, bütün dünyada tanınmasına hərtərəfli yardım göstər-

mək Heydər Əliyevin uzaqgörən siyasətinin mühüm tərkib hissəsini təşkil edirdi. Bu istiqamətdə böyük işlər görülürdü. Məlum olduğu kimi, ittifaq respublikaları SSRİ-nin xarici siyasətində bilavasitə iştirak edə bilməzdilər. Lakin bütün maneə və məhdudiyyətlərə baxmayaraq, Azərbaycanın xarici aləmlə elmi-texniki, iqtisadi və mədəni əlaqələrinin genişlənməsi, müxtəlif ölkələrdə Azərbaycan mədəniyyəti günlərinin keçirilməsi üçün maksimum səylər göstərilirdi. Bakıda beynəlxalq miqyaslı tədbirlər keçirilir, xaricdə yaşayan azərbaycanlılarla əlaqələr qurmaq üçün əməli addımlar atılırdı. O illərdə Bakı dünyanın nüfuzlu elm və mədəniyyət mərkəzinə çevrilmiş, xalqımız qədim tarixə, özünəməxsus mədəniyyətə, adət və ənənələrə malik xalq kimi tanınmış, Azərbaycan isə Cənubi Qafqazın digər respublikaları arasında mühüm mövqelərə çıxmışdı.

Heydər Əliyev Azərbaycanı həm dirçəldir, yenidən qurur, həm də onun gələcəyi barədə düşünürdü. O, gənclərə böyük diqqət yetirirdi. Kadr korpusunun gənclərin hesabına yenilənməsi əvvəllər görünməmiş sürətlə aparılırdı. Gənclər respublikanın elmi-texnki və mədəni potensialını yüksəltmək üçün son dərəcə vacib olan ixtisaslara yiyələnmək məqsədilə Sovet İttifaqının qabaqcıl ali məktəblərinə göndərilirdi. Azərbaycanın elmi və kadr potensialı möhkəmləndirilir, eyni zamanda, gənclərimizin bacarıqlı nümayəndələri vasitəsilə milli mədəniyyətin, mənəvi dəyərlərin təbliği, Azərbaycanın hüdudlarından kənarda onun layiqli imicinin formalaşdırılması kimi mühüm məsələlərin

həllinə nail olunurdu. Bu gün biz qürur hissi ilə deyə bilərik ki, o illərdə təhsil almağa göndərilən gənclərin bir hissəsi hazırda postsovet ölkələrində və Qərb dövlətlərində Azərbaycan diasporunun ürəyini və beynini təşkil edir, ölkəmizin və xalqımızın maraqlarını ləyaqətlə təmsil edir.

O illərdə milli azadlığın və milli özünüdərkin təbliği üçün yaradılan şərait sonradan öz bəhrələrini verdi. SSRİ-nin dağılması ərəfəsində Azərbaycanda milli müstəqillik ideyalarının daşıyıcısı olan geniş təbəqə əslində formalaşmışdı. Bu ideya ilə dolub-daşan insanlar xalqın bütün təbəqələrində – ziyalılar, fəhlə və kəndlilər, tələbələr, dövlət və partiya orqanlarının işçiləri, o cümlədən yüksək vəzifə tutanlar arasında az deyildi. 1980-ci illərin sonlarında qondarma "Dağlıq Qarabağ problemi" ortaya atılandan sonra xalqımızın yüz minlərlə oğul və qızı respublikanın ərazi bütövlüyünün müdafiəsinə qalxdı. Bu, tədricən milli azadlıq mübarizəsinə keçən geniş xalq hərəkatının başlanğıcı idi. Danılmaz həqiqətdir ki, bu hərəkatın siyasi, iqtisadi və mənəvi-psixoloji bünövrəsi məhz 1970-ci illərdə, Azərbaycana Heydər Əliyevin başçılıq etdiyi dövrdə qoyulmuşdur.

Əgər xəyalən o illərə qayıtsaq, qazanılan uğurların qəribə mənzərəsi yaranır. Bu uğurların tam miqyasda əhəmiyyəti və mənası yalnız bu gün başa düşülür. Yalnız uzun illərdən sonra, səhv və yanılmalardan keçən Azərbaycan xalqı mənfı təcrübə sayəsində, 1980-ci illərin axırları 1990-cı illərin lap əvvəllərində qarşıdan gələn fəlakəti hiss edib Heydər Əliyevin 1969-1982-ci illərdə Azərbaycana

rəhbərliyi dövründə nələr etdiyini dərk edə bildi. Aydın oldu ki, o, ilk növbədə milli özünüdərki sovet ideologiya sisteminin buxovlarından azad edə bilmişdi. Hər şeyi və hamını inkar edən qarışıqlıq dövründə Heydər Əliyevin adını xalqın tarixindən və yaddaşından silməyə çalışanların hər biri ürəyinin dərinliyində gözəl başa düşürdü ki, onun siyasi və dövləti fəaliyyəti xalqın milli dövlətçilik barədə çoxəsrlik arzu və istəklərinin həyata keçirilməsi üçün münbit zəmin yaratmışdır.

Əslində, Heydər Əliyev öz siyasəti ilə bolşevizmin qırdığı müqəddəs zaman əlaqələrini təmin etməyə çalışırdı və həqiqətən də bu, çox çətin məsələ 1969-1982-ci illərdə onun tərəfindən həll olundu. Lakin onun Azərbaycan xalqının milli dirçəliş fəlsəfi konsepsiyası tam həcmdə, əlbəttə ki, yalnız müstəqil Azərbaycanda həyata keçə bilərdi. Burada onun fəlsəfi baxışlarının əsasını ümumbəşəri ideallarla milli dəyərlərin həmahəngliyi təşkil edirdi. Bizim bütün tariximiz onun nəzərlərində özünü əsl böyük humanizm dərsi, ən yüksək tolerantlıq, mədəniyyət və sivilizasiyaların ibrətamiz dialoqu kimi göstərirdi. Azərbaycanın nadir geosiyasi mövqeyi Heydər Əliyev tərəfından təkcə Böyük İpək Yolunun bərpası kimi irimiqyaslı iqtisadi layihələrin həyata keçirilməsində istifadə olunmurdu. Bu mövqe həm də Azərbaycan mədəniyyətinin tam dolğunluğu və müxtəlifliyi ilə əsl mənasının fəlsəfi dərkinin əsasını təşkil edirdi. Heydər Əliyevin prezident postunda olduğu 10 il müdddtində Azərbaycan Respublikasının təqvimində faşizm üzərində Qələbə gününün bərpası kimi sadə ad-

dımlardan tutmuş iqtisadiyyat, elm, mədəniyyət və təhsil sahələrindəki islahatlara qədər gördüyü bütün işlər, onun milli dirçəliş, azərbaycançılıq ideyasının formalaşdırılması fəlsəfəsinin həyata keçirilməsinə xidmət edirdi.

Eyni zamanda, o, bu milli-mənəvi dəyərlərin bütün dünyada populyarlıq qazanmasına böyük əhəmiyyət verirdi. Məsələn, Heydər Əliyevin dahi Azərbaycan şairi Məhəmməd Füzulinin 500 illik yubileyinin keçirilməsi ilə bağlı fikirləri bu gün də öz aktuallığını saxlayır. Heydər Əliyev yubileyin məhz müstəqil Azərbaycanda keçirilməsinin vacibliyini qeyd edərək, vurğulayırdı ki, "əsl poeziya bayramına, milli mədəniyyət bayramına çevrilmiş bu şənliklər Azərbaycan dövlətçiliyinin, Azərbaycanın müstəqilliyinin bayramıdır".

Milli dirçəliş yolunda atılmış ən mühüm addımlardan biri 1930-cu illərdən "pantürkizm"i təbliğ edən əsər kimi qadağan edilmiş misilsiz milli sərvətimiz olan "Kitabi-Dədə Qorqud" eposunun xalqımıza qaytarılmasıdır. "Kitabi-Dədə Qorqud" dastanlarının 1300 illiyinə həsr edilmiş təntənəli yığıncaqdakı çıxışında o, türk xalqlarının ümumi tarixi köklərinin "Dədə Qorqud"la əlaqəsini qeyd etmiş, dastanın bütün türk xalqlarına, lakin ilk növbədə, Azərbaycan xalqına məxsus olduğunu vurğulamış, qəhrəmanlıq eposunu milli sərvətimizin ən möhtəşəm, ən parlaq abidəsi kimi səciyyələndirmişdir.

Heydər Əliyevin onillik prezidentliyi dövründə milli mədəniyyətin qorunması, inkişafı və təbliği sahəsində çoxşaxəli fəaliyyəti əslində ölkənin yeni

vətəndaşının və milli dövlətçiliyimizin prinsiplərinin ideya cəhətləri formalaşmasına xidmət edirdi. Bu prosesləri diqqətlə izləyən və çox vaxt onların təşəbbüskarı və iştirakçısı olan Heydər Əliyev belə bir fikri vurğulayırdı ki, "Azərbaycan xalqının milli sərvəti və intellektual mülkiyyəti, eyni zamanda, ədəbiyyat, mədəniyyətdir. Odur ki, biz öz müstəqil dövlətimizi boş yerdə qurmuruq. İqtisadi potensialla yanaşı, bizim intellektual potensialımız da vardır. Bizim mənəvi potensialımız–ədəbiyyat, mədəniyyət intellektual potensialımızın əsasını təşkil edir. Bütün bunlar xalqımızın görkəmli nümayəndələri tərəfindən yaradılmışdır. Onlar yüzilliklərdən bəri bəşər mədəniyyətini zənginləşdirən əsərləri ilə bütün Azərbaycanın mülkiyyəti olan nəhəng intellektual potensial yaratmışlar".

Bu gün qlobal dünyaya inteqrasiya edərkən biz bilməliyik ki, Heydər Əliyev Azərbaycan xalqının milli "Mən"ini, ənənələrini, dilini, tarixini, sosiomədəni fonunu qorumağa necə böyük əhəmiyyət verirdi. Qlobal mədəniyyəti formalaşdıran xarici amillər cəmiyydtimizə nəzərəçarpacaq təsir göstərir. Bunun nəticəsi ondan ibarət olur ki, milli mədəniyyət, tarix, ənənələr qlobal sosiomədəni koordinat sisteminin törəməsinə çevrilir. Bu koordinat sistemi bütün lokal dəyərləri əvəzləyir və milli sosiomədəni amilləri vahid qlobal amillərə transformasiya edir. Deməli, biz ümumbəşəri dəyərlərə doğru irəliləməyə kömək edən milli xüsusiyyətlərimizi qorumaq uğrunda mübarizə aparmalıyıq. Ona görə də nəinki milli mədəniyyəti və ənənələri qorumaq, həm də onların inkişaf etdi-

rilməsi və gələcək nəsillərə ötürülməsi üçün şərait yaradılması mühüm əhəmiyyət kəsb edir. Məhz belə yanaşma dahi Heydər Əliyevin bizə miras qoyduğu Azərbaycan milli dövlətçiliyini inkişaf etdirməyə imkan yarada bilər.

Azərbaycan dövlətçiliyi milli ideyanin təcəssümü kimi

Müstəqil Azərbaycanın əsas ideyası azərbaycançılıqdır. Hər bir azərbaycanlı öz milli mənsubiyyəti ilə fəxr etməlidir, biz azərbaycançılığı – Azərbaycanın dilini, mədəniyyətini, milli-mənəvi dəyərlərini, adət və ənənələrini inkişaf etdirməliyik.

Heydər Əliyev

Azərbaycan dövlətçiliyi minilliklər boyu təşəkkül, tərəqqi və tənəzzül dövrlərini yaşamışdır. Bir hissəsi bu gün Azərbaycan Respublikasının tərkibinə daxil olan ərazilər uzun illər iri dövlətlərin təcavüz obyekti olmuşdur. Ancaq bu gün biz öz müstəqil, suveren dövlətçiliyi Dünya Birliyi tərəfindən tanınan, sayca bir o qədər də çox olmayan xalqlardan biriyik.

Lakin tarix göstərir ki, heç də bütün xalqlar milli dövlətçiliyin qədr-qiymətini obyektiv qavramaq iqtidarında deyil. Bu da son nəticədə onların yox olmasına və ya ümumdünya proseslərində əhəmiyyətinin itməsinə gətirib çıxarır. Digər tərəfdən, hər bir dövlət öz taleyinin sahibi olmur, odur ki, dünya geosiyasətinin

adi obyekti kimi dəyiş-düyüş vasitəsinə çevrilir. Bunun əsas səbəblərindən biri millətin strateji fəaliyyət proqramının, dövlətin və millətin mövcudluğunun mənası, inkişafın məqsəd və prioritetləri kimi çıxış edən milli ideyanın olmamasıdır.

Milli ideyanı milli gerçəkliyə və tarixi taleyə çevirən əsas qüvvə lider faktorudur. Dünya tarixi də, müstəqillik tariximiz də bunu sübut edir. Xalqın dəstəklədiyi və siyasi liderin fəhmlə duyduğu təməl dəyərlər məsələsində konsensus dövlətin sabitliyi və inkişafının dəyişməz şərtidir.

Heydər Əliyevin missiyası yalnız Azərbaycan dövlətinin dayaqlarının möhkəmləndirlməsi, müstəqilliyin inkişafı və dövlətçilik tariximizin müasir mərhələsinin sürəkliliyinin təmin edilməsi kimi şərəfli bir vəzifəni yerinə yetirməklə məhdudlaşmadı. O, müstəqil Azərbaycan dövlətinin yaradılması konsepsiyasını həyata keçirdi, eyni zamanda Azərbaycan vətəndaşlarını birləşdirən, xalqımızı beynəlxalq aləmdə vahid amal, əqidə, məqsəd və məram ətrafında səfərbər edən milli təlim – "azərbaycançılıq" ideologiyasını da yaratdı. Xalqımızın ümummilli lideri Heydər Əliyev müstəqil Azərbaycan dövlətinin təməlini qoymaqla müqəddəs bir missiyanı gerçəkliyə çevirdi: millilikla dövlətçiliyi bir-birinə qovuşdurdu, onların sarsılmaz vəhdətini təmin etdi. Dünyadakı hər bir xalqın arzusunda olduğu bu əlçatmaz ideal Azərbaycan adlı məkanda da reallaşdı.

Azərbaycan milli ideyası mürəkkəb təşəkkül yolu keçmişdir, öz spesifikasına malikdir, məzmunu, universallığı, insanpərvərliyi, çevikliyi və

təbiiliyi ilə seçilir. Bunu XIX əsrin ikinci yarısı — XX əsrin əvvəllərində milli ideyanın təşəkkülünün, daha sonra Azərbaycan Sovet İttifaqının tərkibində olarkən onun müəyyən transformasiyasının, nəhayət, müstəqilliyin bərpası, milli dövlətçiliyin qurulması və milli özünüdərkin sonrakı inkişaf mərhələsində qəti formalaşmasının tarixi təsdiq edir.

Məlum olduğu kimi, sovet dövrü cəmiyyətin obyektiv əsasları olmayan və süni yaradılmış yeni identifikasiyanın müəyyən olunması ilə seçilirdi. Milli siyasi təşkilatların yaradılmasına qadağalar, həmçinin totalitar, inzibati-amirlik idarəçiliyi sisteminin qurulması Azərbaycan gerçəkliyinə milli təfəkkürün transformasiyaya uğramış, sovet dövrünün tələblərinə uyğunlaşdırılmış modelini gətirdi.

Kommunist ideologiyası proletar təfəkkür haqqında müddəanı irəli sürərək, əslində milli özünüdərkin təkamülünə mənfi təsir göstərirdi, orada milli təfəkkürə yer yox idi.

Tələb olunurdu ki, hər halda tarix Kommunist Partiyasının alternativsizliyi şəraitində milli təfəkkürün və milli iqtisadiyyatın, mənəvi dirçəlişin, əhalinin rifah halının və milli özünüdərkin artması üçün baza olan təhsilin keyfiyyətinin yaxşılaşmasına hesablanan siyasət yürüdə bilən dövlət xadimini ön sıralara çıxarsın.

Millətin inkişafı problemləri və milli maraqlar Heydər Əliyev üçün həyatın mənası idi. Perspektivə hesablanan kadr potensialının formalaşması, yaradıcı ziyalılara, elm nümayəndələrinə qayğıkeş münasibət 1970-1980-ci illərdə millətin yüksək elmi-texniki və mədəni potensialını əks edən təşəb-

büslərin yaranmasına və həyata keçirilməsinə imkan verdi.

Milli dəyərlərin dirçəldilməsi, əhalinin rifahının artması və təhsilin səviyyəsinin yüksəlməsi insanların davranış modellərində dəyişikliklərə əhəmiyyətli təsir göstərdi. O illərdəki dəyişikliklər hər yerə, ölkənin ən ucqar guşələrinə belə yayılırdı. Doğrudur, ənənəvi cəmiyyətin modernləşdirilməsi, hər şeydən əvvəl, ölkənin sənaye mərkəzlərinin əhalisinə təsir göstərir, sonra isə mərkəzdən əyalətə doğru yayılırdı. Əlbəttə, o dövrdə Azərbaycan cəmiyyətinin daxilində milli ideyanın formalaşması məsələlərinə dair geniş diskussiyaların aparıldığını söyləmək olmaz. Lakin fakt odur ki, "milli maraqlar" ("milli ideya"nın əsası kimi) anlayışı Azərbaycan cəmiyyətinin qabaqcıl hissəsinə və Heydər Əliyev başda olmaqla hakim elitaya yad deyildi. İttifaq dövləti çərçivəsində real siyasətdə milli maraqların ehtiyatla və ardıcıl reallaşdırılması ötən əsrin 80-ci illərinin sonu – 90-cı illərinin əvvəllərində ölkədə milli hərəkatın genişlənməsinə zəmin hazırlamış, 1991-ci ildə dövlət müstəqilliyini bərpa etmək üçün baza yaratmışdır.

1991-ci ildə müstəqillik yoluna qədəm qoyulması, düşünmək olardı ki, Azərbaycan tarixində yeni səhifə açır, eyni zamanda, o vaxt meydana çıxan problemlərin dərhal həll edilməsi zərurətini ortaya qoyur.

Əfsuslar ki, müstəqilliyin ilk illərində Azərbaycan dövlət quruculuğunun zəruri vəzifələrinin heç kiçik hissəsini də (xarici təcavüzün dəf edilməsini, daxili siyasi kontekstin sabitləşdirilməsi, cəmiy-

yətin tam xaos və vətəndaş müharibəsinə sürüklənməsinin qarşısının alınması, heç olmasa, minimum həyat qabiliyyətinə malik iqtisadiyyatın yaradılması) həll etməyə müvəffəq ola bilmədi.

İdarəçilikdə diletant metodlar və ölkə rəhbərliyinin, xüsusilə də xarici siyasət, müdafiə qabiliyyəti və iqtisadi islahatlar sahəsində tam fərasətsizliyi Azərbaycan cəmiyyətində daxili siyasi qarşıdurmanı son həddə qədər qızışdırmış və separatçılıq əhvalruhiyyəsinin güclənməsi üçün zəmin yaratmışdı. Bu cür şəraitdə hər hansı uzunmüddətli plana nail olmaq üçün millətin birləşməsindən söhbət gedə bilməzdi. Ölkə rəhbərliyi də öz məqsədlərini aydın ifadə etmək iqtidarında deyildi. Uğursuz siyasət nəticəsində dövlət təsisatları və ictimai təsisatlar tamamilə tənəzzülə uğramışdı. 1988-ci ildən 1993-cü ilə qədər olan dövrü tam əminliklə qarışıqlıq, hakimiyyətsizlik və anarxiya dövrü adlandırmaq olar.

Tarixi miqyaslı şəxsiyyət olan Heydər Əliyev ölkədə yaranmış vəziyyəti dəqiq qiymətldndirərək bütün Azərbaycan cəmiyyətini Azərbaycan dövlətinin mövcudluğu baxımından həyati əhəmiyyət daşıyan məsələlərin, o cümlədən hakimiyyət vakuumunun aradan qaldırılması, separatçılıq və silahlı bandit dəstələrinin təhdidlərinin qarşısının alınması, döyüş qabiliyyətli ordu yaradılması məsələlərinin həll edilməsi üçün səfərbər etdi. Azərbaycan xalqı Heydər Əliyevin yorulmaz dövləti fəaliyyəti sayəsində cəmiyyətin daxilindəki ziddiyyətləri həll etməyə və yüksələn inkişaf üçün zəmin yaratmağı bacaran, güclü məna potensialı ilə yüklənmiş milli ideyaya sahib oldu.

Heydər Əliyevin onillik prezidentliyi dövründə ölkə köküdən dəyişmiş, daxili və xarici siyasətin bir çox istiqamətlərində əhəmiyyətli uğurlar qazanılmışdır. Azərbaycan dövləti uzunmüddətli yaşamaq qabiliyyətini, cəmiyyət isə tarixi prosesin növbəti mərhələsində iştirak etməyə hazır olduğunu nümayiş etdirmişdir. Müasir Azərbaycan Respublikasının müstəqilliyi həm ölkənin sadə vətəndaşları, həm də qlobal miqyaslı mühüm güc mərkəzləri üçün aksioma çevrilmişdir. Məhz Heydər Əliyev şəxsiyyəti, onun xarizması, bəsirəti, iradəsi, təcrübəsi göstərilən dövrdə bizim üçün "millət", "dövlətçilik", "idarəçilik sistemi", "hakimiyyət", "inkişaf etmiş iqtisadiyyat", "mənəvi dirçəliş", "liderlik", "transformasiya", "çoxvektorluluq" kimi sistem dəyərlərin təşəkkülündə və möhkəmlənməsində mühüm rol oynadı.

1993-cü ilin ortalarından başlayaraq, Azərbaycan strateji seçimini müəyyənləşdirdi. O, müasir, dünyəvi, beynəlxalq birliyə inteqrasiya edən, demokratik əsaslara sadiq olan ölkə kimi inkişaf etməyə başladı. Siyasi modernləşmə sahəsində artıq ilk addımlar iqtisadiyyatın güclənməsinə təkan verdi. Bu da yığılıb qalan sosial problemlərin tədricən həll olunmasına gətirib çıxardı. Hakimiyyət özü üçün müəyyən etdi ki, səylərini inkişafın yeni alətlərinin axtarışına yönəltməlidir. Çünki bilirdi ki, milli təhlükəsizliyin möhkəmləndirilməsində uğur bir çox hallarda inkişaf etmiş iqtisadiyyat, sosiumun mənəvi və intellektual səviyyəsi ilə şərtlənir. Aydın idi ki, məhz milli hisslər, milli ənənələrə (milli identikliyin, özünəməxsusluğun

dirçəlməsinə, qorunmasına can atmaq, Qərb və Şərqin tarixi nailiyyətləri ilə zənginləşmək zəminində cəmiyyətin modernləşdirilməsi, güclü və müstəqil Azərbaycan qura bilən milli çoxluğun formalaşdırılması) dərindən bağlılıq sarsılmaz və uğurlu dövlət quruculuğunun rəhnidir.

Eyni zamanda, Heydər Əliyevin rəhbərliyi sayəsində Azərbaycan cəmiyyəti 1990-cı illərin əvvəllərinin xaos və özbaşınalığını arxada qoyaraq, özündə yeni inkişaf ideologiyası ilə ifadə oluna biləcək dəyərlərə can atmaq həvəsi hiss etdi. Yeni şəraitdə milli və dövlət quruculuğu ideyalarına uyğun olan daha etibarlı dəyərlər bazası və kollektiv özünüdərk zərurəti yarandı. Cəmiyyət, milli identikliyin inkişafı ilə bərabər, ənənəvi dəyərləri saxlamaqla ölkənin rəqabət qabiliyyətini təmin edən yeni inkişaf mənbələrinə müraciət etməyə başladı.

Milli və dövlət müstəqilliyinin qorunması, milli identikliyin inkişafı, Dünya Birliyinə inteqrasiya bundan belə azərbaycanlıların milli özünüdərkinin struktur hissəsinə çevrildi. Məhz müstəqil Azərbaycan dövləti üçün qürur hissi, onun hadisələrlə zəngin tarixi üçün qürur hissi, Azərbaycan millətinin dünya tarixinə töhfə verməyə hazır olması Heydər Əliyevi bu sözləri söyləməyə ruhlandırmışdır: "Mən fəxr edirəm ki, mən azərbaycanlıyam".

Bu kontekstdə "azərbaycançılıq" dövlət siyasətinin strategiyası olaraq Azərbaycan cəmiyyətinin bu gününün və gələcəyinin müasir ideoloji qavranması ilə six birləşir. "Azərbaycançılıq " milli ideologiyanın əsası kimi müxtəlif xalqların, mədə-

niyyətlərin, ənənələrin, konfessiyaların üzvi surətdə birliyini təcəssüm edir. O, milli maraqları ifadə edən güclü dövlət hakimiyyətinə və yüksək milli intizama, formalaşan milli özünüdərkə əsaslanır, ən müxtəlif sosial təbəqələrdə anlaşma axtarır, millətin və dövlətin öz potensialından irəli gələn daimi, lakin qeyri-radikal islahatçılığı təbliğ edir.

"Azərbaycançılıq" xalqımızın iztirabları ilə yoğrulmuş tarixi dəyərdir, real müstəqilliyə nail olunması, vahid, bölünməz Azərbaycanın qorunması və möhkəmləndirilməsi üçün açardır. Bu gün "azərbaycançılıq" milli həyatın, konfessiyaların harmoniyasının çoxəsrlik ənənəsi, ölkədə yaşayan bütün millət və etnik qrupların qardaşlığının, qarşılıqlı əlaqə və qarşılıqlı təsirinin tarixi, onların ümumi taleyi və müstəqil Azərbaycanın bütövlüyü uğrunda birgə mübarizələrinin tarixi təcrübəsidir.

Beləliklə, "azərbaycançılıq " ideologiyası etnik yox, siyasi və vətəndaşlıq xarakteri daşıyır, yalnız müstəqil Azərbaycanın vətəndaşlarına münasibətdə deyil, Azərbaycanın müstəqil dövlətçilik ideyasını əziz tutanlara münasibətdə də öz birləşdirici funksiyasını yerinə yetirir.

Nəticədə Heydər Əliyevin dünya azərbaycanlılarının birinci qurultayında dediyi kimi, millətin və dövlətin vəhdəti və bölünməzliyi ideyası əsas götürülür. Heydər Əliyev demişdir: "Azərbaycançılıq öz milli mənsubiyyətinin saxlanılması, millimənəvi dəyərlərin saxlanması, eyni zamanda, onların ümumbəşəri dəyərlərin sintezi, inteqrasiyası ilə zənginləşməsi, hər bir insanın inkişafının təmin edilməsi deməkdir".

Bu gün Azərbaycan müsbət təcrübəni uğurla mənimsəyir. Təsadüfi deyil ki, "özünü azərbaycanlı hiss edən azərbaycanlı sayıla bilər" tezisi yalnız azərbaycanlı doğulanlar üçün deyil, ölkənin etnik bağlantısı olmayan vətəndaşları üçün də aktualdır. Azərbaycan son illərdə bütün azərbaycanlılar üçün vətən olmuşdur. Bu da ilk növbədə, Heydər Əliyevin Azərbaycan diasporunu formalaşdırması üzrə səylərinin nəticəsidir.

Azərbaycançılıq məfkurəsi fəal sosial təbəqələrin səfərbər edilməsində, hakimiyyətin xalq kütlələri ilə inkişaf və modernləşdirmə strategiyasının ətrafında birləşməsində, ölkənin milli ideyasının həyata keçirilməsində səmərəli vasitə olmuşdur. Həmin strategiyanın hazırkı mərhələdə leytmotivi Azərbaycanın müstəqil varlıq kimi dərk edilməsidir.

Azərbaycan xalqının milli məfkurəsinin təkamül prosesinin iştirakçıları ideoloji konsepsiyanın son variantının formalaşmasına öz töhfələrini vermiş parlaq şəxsiyyətlər olmuşlar. Bu insanların öz xalqına sadiqliyi, milli maraqlar naminə özlərini qurban verməyə hazır olmaları öz böyük işlərinin dərk edilməsinə əsl nümunədir. Onların fəaliyyəti tariximizdə dərin izlər buraxmış, Azərbaycan xalqının taleyini dəyişmişdir. Həyatı boyu Azərbaycana iki dəfə rəhbərlik etməyə, ölkəni böhran vəziyyətlərindən çıxarmağa, milli inkişafın əsas prinsiplərini müəyyən etməyə çağırılmış Heydər Əliyev də bu cür şəxsiyyətlərdən idi.

Heydər Əliyev hesab edirdi ki, milli əsas – azərbaycançılıq, bərabərlik və Azərbaycanda yaşayan bütün millətlərin əməkdaşlığı, milli birlik, milli-

mənəvi dəyərlərin qorunması, ümumi tarix və ünsiyyət dilinin ümumiliyi etnik mənsubiyyətindən asılı olmayaraq, hər bir azərbaycanlıya özünü hamı üçün ümumi olan evin tikintisinə səfərbər edilmiş dəyərli insan kimi hiss etməyə imkan verir.

Gənc müstəqil dövlətin yaranması və inkişaf etməsi bizim əsrdə çox çətin vəzifədir. Yalnız öz gücünə və resurslarına arxalanaraq, real müstəqil daxili və xarici siyasət yürüdülməsi olduqca çətin məsələdir. İllər, onilliklər ötəcək, müstəqil və inkişaf etmiş Azərbaycan vətəndaşlarının nəsilləri dəyişiləcək, yeni çağırışlar meydana gələcək, lakin Heydər Əliyevin milli ideyanın reallaşdırılması üçün etdikləri əbədi olaraq Azərbaycan xalqının kollektiv yaddaşında qalacaqdır.

XIX əsrin sonu – XX əsrin əvvəlində milli ideya özünün ən ali məqsədini-milli birlik və müstəqilliyi təmin edən qarşısıalınmaz gücə çevrilə bilmədi.

Ötən əsrin 90-cı illərində, müasir dövrün siyasət dahisi, ümummilli lider Heydər Əliyev milli ideyanı tarixin verdiyi çox qısa və çətin zamanda milli varlığın təcəssümünə çevirməyə nail oldu. Milli ideya ilə bağlı məqalədə qeyd etdiyimiz kimi "Proseslərin gedişi təkidlə tələb edirdi ki, Azərbaycanı tamamilə dağılmaq və ya parçalanmaq təhlükəsindən yalnız sözün həqiqi mənasında tarixi miqyaslı, həm Azərbaycan millətinə xas olan mühüm dəyərlərin müəyyən toplusunun təcəssümü rolunda, həm də qeyri-standart siyasi qərarların güclü və iradəli mənbəyi rolunda çıxış etməyə qadir olan şəxsiyyət xilas edə bilər. Yalnız böyük dövlət xadimi milləti xilas edə, onun ideyasını həyata keçirə bilər. "

Milli ideyanın tarixdə ilk dəfə suveren formatda gerçəkləşdirilməsi dövlətçilik ənənəsində etatizmdən – müstəqil dovlətin siyasi təşkilatlanmasından güc alaraq daha qüdrətli zirvələrə yüksəlməsi başlanğıcını götürdü. XX əsrin əvvəllərində milli ideya öz ali məqsədini – etatizmi həyata keçirə bilməmişdi. Suveren dövlət statusunu qazanmaq kimi tarixi nailiyyətə qovuşmaq – arzu olaraq qalmışdı. Yəni milli ideyanın statusu, strukturu, prinsip və funksiyaları, mükəmməl strateji və taktiki hədəflər sistemi hələ formalaşmamışdı.

Ümummilli lider Heydər Əliyev bu cahanşümul məqsədləri müstəqil Azərbaycan adlı ünvanda reallığa cevirdi. Xalqımızın tarixi, siyasi uğurlarının zəfər trayektoriyası artıq davamlı kəsilməz xarakter aldı. XX əsrin ikinci yarısında qlobal transformasiya və sarsıntılarla paralel müşayiət olunan zamanda, bəzi ölkələrin süqut, bəzilərinin isə yenidən doğulduğu bir ərəfədə dünya siyasi xəritəsində xalqımız şanlı Azərbaycan tarixi adlı portretin cizgilərində özünü tanıdı, milli özünüdərk və mənlik mərhələlərini qət etdi. Milli ideal – Ümummilli lider nümunəsində ideyanın missiyası bu dövr üçün qələbələrlə başa çatdırıldı. Azərbaycanda tarixdə ilk dəfə müstəqil milli dövlət yaradıldı. İlk dəfə milli ideya nəzəri sxem kimi qalmayıb dövlətçiliyin varlığını təmin etdi, onu "əbədi, sarsılmaz və dönməz" (Heydər Əliyev) fenomeni kimi dünya tarixinə həkk etdi. Bütün bunlar: ideya və zamanın mürəkkəb münasibətlərini milli dühası ilə, Azərbaycan naminə fövqəlsəyləri ilə nizamlayan siyasi lideri Heydər Əliyevi – Milli ideala, Ümummilli lider zirvəsinə

ucaltdı. Tariximizdə dəfələrlə qısa və ya uzun müddətə müxtəlif səbəblərdən milli ideyanın qarşısının alınmasına, dövlətçilik ənənəmizin davamlı inkişafına əngəl olan fasilə, məğlubiyyət, süqut kimi xəstəliklərə birdəfəlik sədd çəkildi.

Bunlar azərbaycanlıların neçə nəsilləri durduqca onlar üçün milli ideal və örnək olacaq Heydər Əliyev şəxsiyyətinin, XX əsrin sonlarında milli ideyamızın nadir subyektinin tarixi xidmətləridir. Ümummilli lider tarixi təcrübə və nəzəri müddəaların varisliyini təmin etməklə yanaşı kollektiv və fərdi identikliyimizin, dövlət ideologiyamızı "azərbaycançılığı" mərkəzi müddəa kimi önə keçirdi. Bunun mənasını isə Heydər Əliyevin bütün fəaliyyəti, dövlətçilik və xalq qarşısında xidmətləri nümunəsində dərk etmək olar.

Müstəqilliyimiz Ümummilli Lider Heydər Əliyevin nəsillərə əmanətidir

Heydər Əliyevin əsəri olan
müasir Azərbaycan dövləti daha da
qüdrətli, zəngin olacaq,
hərtərəfli inkişafa nail olacaqdır.

İlham Əliyev

Azərbaycan xalqının əsas tarixi nailiyyəti olan dövlət müstəqilliyinin 20 ili artıq arxada qalmışdır. Azərbaycan tarixində mahiyyətinə və əhəmiyyətinə görə müstəsna səhifə olan milli müstəqilliyin qazanılması xalqımızın azadlıq və müstəqillik uğrunda

çoxillik mübarizəsinin məntiqi nəticəsidir. Milli ideyanı həyata keçirmək, dünya arenasına müasir millət və müstəqil dövlət kimi çıxmaq, öz taleyinin sahibi olmaq, azad və müstəqil yaşamaq hüququ qazanmaq, heç şübhəsiz, asan başa gəlmədi, xalqımız ziddiyyətli, həyəcanlı, çətin sınaqlarla dolu tarixi mərhələlərddn keçməli odu.

Tarix baxımından qısa müddətdə Azərbaycana rəhbərlik edən Heydər Əliyev ölkəmizin inkişafının çox möhkəm əsasını qoydu, bu inkişafın perspektivlərini işıqlandıran ideya və prinsipləri müəyyənləşdirdi. Bizə və gələcək nəsillərə bu dahi insanın, ümummilli liderin, XX əsrin böyük ictimai və siyasi xadiminin həyat və yaradıcılığını yaxşı öyrənmək, ideyalarını mənimsəmək və həyatımızda tətbiq etmək qalır. Xalqımızın xoşbəxt gələcəyi bir çox hallarda bundan asılıdır.

Heydər Əliyev artıq 10 ilə yaxındır ki, aramızda yoxdur. Lakin Azərbaycanın inkişafına və modernləşdirilməsinə hədəflənmiş səmərəli dövlətçilik siyasəti Prezident İlham Əliyev tərəfindən uğurla həyata keçirilir. Heydər Əliyevin dərindən düşünülmüş, hazırlanmış və qətiyyətlə həyata keçirilən daxili və xarici siyasət kursu bu gün bütün istiqamətlərdə uğurla davam etdirilir.

Heydər Əliyev gözəl başa düşürdü ki, siyasi sabitlik, lazımi iqtisadi inkişaf və ictimai əmin-amanlıq olmadan istənilən demokratiyanın ömrü az olacaqdır. Bu siyasəti son 10 ildə davam etdirən Prezident İlham Əliyev milli ənənələri və geosiyasi özəllikləri nəzərə alaraq ölkəni iqtisadi

yetkinlikdən demokratik yetkinlik məkanına bacarıqla transformasiya edir.

Məhz bu kursun davamı kimi, 2003-cü ildən Azərbaycanda yeni inkişaf strategiyası həyata keçirilir. İlham Əliyevin daxili və xarici siyasəti nəticəsində təxminən son 10 ildə ictimai-siyasi, sosial-iqtisadi və mədəni həyatın bütün sahələrində, hüquqi dövlət və vətəndaş cəmiyyəti quruculuğunda ciddi yeniliklər və uğurlar qazanılmışdır. Bir çox parametrlərinə görə Azərbaycan sürətlə inkişaf edən ölkəyə çevrilmişdir. Regionların 2004-2008-ci və 2009-2013-cü illəri əhatə edən sosial-iqtisadi inkişafı Dövlət proqramlarının qəbul edilməsi və uğurla yerinə yetirilməsi respublikamızın hərtərəfli tərəqqisinə və iqtisadi inkişafına güclü təkan vermişdir. Bu müddətdə 40 mindən çox yeni müəssisə yaradılmış, çoxu daimi olmaqla ümumilikdə bir milyondan artıq yeni iş yeri açılmış, son 8 ildə yoxsulluğun səviyyəsi 49 faizdən 7,6 faizədək azalmış, işsizlik isə 5,3 faizə enmişdir. Son illərdə büdcə xərcləri 12 dəfə, ümumi daxili məhsul 3 dəfə artmış, 1995-2010-cu illərdə ölkə iqtisadiyyatına 80 milyard dollardan artıq investisiya cəlb olunmuşdur. Yalnız 2011-ci ildə iqtisadiyyata yatırılmış 21,7 milyard dollar investisiyadan 15,7 milyard dolları qeyri-neft sektoruna yönəldilmişdir, 149 ölkə ilə xarici ticarət dövriyyəsi 36,3 milyard dollar təşkil etmişdir. 2011-ci ildə ölkəmizdə ümumi daxili məhsulun həcmi 63,4 milyard dollara çatmışdır ki, bu da Cənubi Qafqaz regionunun ümumi daxili məhsulunun 80 faizindən çoxunu təşkil edir.

Azərbaycan bu gün Cənubi Qafqazda sabitlik və tərəqqi adasıdır. O, gündən-günə inkişaf edir, daha da inamlı olur. Bütün bunlar ölkəni və Azərbaycan cəmiyyətini inkişafın daha yüksək pillələrinə aparır.

Heydər Əliyev hər bir dövlətin varlığının əsasını təşkil edən iqtisadi inkişafı dövlət həyatının ən vacib vəzifəsi hesab edirdi. O öyrədirdi ki, dövlət qurarkən cəmiyyətin yaşam tərzini, ictimai həyat normalarını, idarəçiliyi, qanunçuluğu, sabitliyi, vətəndaş birliyini, milli həmrəyliyi, və s. vəzifələri o zaman dolğun və davamlı təmin etmək olar ki, dövlətin iqtisadiyyatı normal vəziyyətdə olsun və qarşıya qoyulmuş vəzifələrə cavab versin. Heydər Əliyev hər bir Azərbaycan vətəndaşını milli əxlaqa və güclü iradəyə malik, qlobal və azad düşüncəli, təşəbbüskar, fəal, ölkədaxili və beynəlxalq proseslərdən baş çıxara bilən, təhsilli, ədalətli, vətəni və xalqı üçün gərəkli insan kimi görmək istəyirdi.

Heydər Əliyevin sayəsində yeni yüzilliyə, həm də yeni minilliyə müstəqil dövlət kimi qədəm qoymaq tariximizdə ilk dəfə baş verdi və bu əbədi proses olacaqdır. Məhz Heydər Əliyev müasir müstəqil Azərbaycanın arxitekturasını yaratmış, milli dövlətçiliyimizin ideya təməlini qoymuşdur.

Çox illər keçəcək, lakin çiçəklənən Azərbaycanın vətəndaşları dövlət müdrikliyi və sarsılmaz mətinliyi sayəsində Azərbaycanın gələcəyini təmin etmiş bu dahi insanı unutmayacaqlar. Əsası Heydər Əliyevin yorulmaz əməyi ilə qoyulmuş bu dayanıqlı inkişaf İlham Əliyevin dövlət xadimi istedadı sayəsində davam edir.

Həmin inkişafın başlıca yekunlardan biri də dövlət başçısı İlham Əliyevin bu sözlərində bariz ifadəsini tapmışdır: "Azərbaycan bu illər ərzində həm öz vətəndaşlarına, həm də dünyaya sübut etdi ki, biz müstəqil ölkə, azad xalq kimi yaşayırıq və yaşaya bilərik!".

Ramiz MEHDİYEV
Azərbaycan Respublikası Prezident Administrasiyasının rəhbəri, Azərbaycan Milli Elmlər Akademiyasının akademiki

XX ƏSRİN QÜDRƏTLİ SİYASİ LİDERİ

Azərbaycanın ümummilli lideri Heydər Əliyevin 90 illik yubileyi ilə əlaqədar tədbirlər nəinki Azərbaycanda, habelə dost və qardaş ölkələrdə və dünya azərbaycanlılarının məskunlaşdığı xarici aləmdə də geniş qeyd olunur. Azərbaycan zaman baxımından iki böyük tarixi dövr yaşamışdır. Birinci qədim dövrü əhatə edir və o zaman da ölkənin tanınmış şəxsiyyətləri, igid qəhrəmanları, müdrik və xeyirxah insanları zox olmuşdur. Onlar da öz dövrlərinin lazımi qiymətlərini almışlar. İkinci isə yeni dövrüdür ki, bu dövr məhz böyük düha sahibi Heydər Əliyev dövrüdür. Doğma xalqına qəlbən bağlı olan, onun səadəti naminə əlindən gələni əsirgəməyən Heydər Əliyev xalqımızın müdriklik simvoluna çevrilmişdir. O, dağ əzəmətli görkəmi, iti ağlı, dərin düşüncəsi və müdrik zəkası ilə dünya siyasətçilərini valeh etmişdir. Özünün uzaqgörənliyi, dərin düşüncə tərzi, böyük siyasi manevri ilə ən çətin məqamlarda belə çevik çıxış yolları tapan və mürəkkəb məsələləri həll etməyi bacaran dahi bir şəxsiyyət idi. Heydər Əliyevi Azərbaycanın bütün problem məsələləri düşündürürdü və bu məsələlərin hər birini çətinliyindən və mürəkkəbliyindən asılı olmayaraq həll etməkdə çıxış yolları axtarıb tapırdı və bunlara nail olurdu.

Heydər Əlirza oğlu Əliyev 10 may 1923-cü ildə Naxçıvan şəhərində sadə fəhlə ailəsində doğulmuşdur. Naxçıvan Pedaqoji Texnikumunu bitirdikdən

sonra 1939-1941-ci illərdə M.Əzizbəyov adına Azərbaycan Sənaye İnstitutunda təhsil almışdır. 1941-ci ildə Naxçıvan Muxtar Respublikası Xalq Daxili İşlər Komissarlığında və Naxçıvan Muxtar Respublikasının Xalq Komissarları Sovetində şöbə müdiri vəzifəsində çalışmışdır. 1944-cü ilin mayında Heydər Əliyev Naxçıvan şəhər Partiya Komitəsi tərəfindən Dövlət Təhlükəsizlik orqanlarına işə göndərilmiş və burada 1969-cu ilə qədər müxtəlif məsul vəzifələrdə çalışmışdır. 1950-ci ildə o, Sankt-Peterburq şəhərində Milli Təhlükəsizlik orqanları məktəbini, 1957-ci ildə isə Azərbaycan Dövlət Universitetinin tarix fakültəsini bitirmişdir. 1964-cü ildə Azərbaycan Nazirlər Soveti yanında Dövlət Təhlükəsizliyi Komitəsi sədrinin müavini, 1967-ci ildə isə sədri vəzifəsinə irəli çəkilmiş və ona general-mayor rütbəsinə layiq görülmüşdür.

1969-cu ilə qədərki dövrdə, xüsusən də 60-cı illərdən sonra Azərbaycan xalqı sanki bir ətalət dövrü yaşayırdı və həyatın hər bir sahəsində olmazın çətinliklərə və məhrumiyyətlərə məruz qalmışdı. Burada müdriklərimizin bir fikrini yada salmaq istərdim. Bəşəriyyət tarixində müxtəlif xalqlar və tayfalarda ağır çətinliklər olarkən, hərc-mərclik baş verərkən, qanunsuzluqlar hökm sürərkən o tayfa və xalqlar içərisində qanun-qayda yaratmaq üçün qadir Allah peyğəmbərlər göndərərmiş və o peyğəmbərlər hər işi qaydaya salarmış.

Belə bir çətin durumda Ulu Tanrımız Heydər Əliyevi sanki Azərbaycan xalqına bir xilaskar simasında göndərdi. O, Azərbaycana rəhbər təyin edildikdən sonra respublikanın bütün bölgələrini qarış-qarış gəzər, çatışmazlıqları aradan qaldırmaq üçün konkret təkliflər verər və tədbirlər görərdi.

1969-cu ildən həyatımızın bütün sahələrində sürətli inkişaf dövrü başladı. Azərbaycanın elm adamlarına, ziyalı zümrəsinə, ədəbiyyat və incəsənət xadimlərinə xüsusi diqqət göstərildi. Neft və kimya sənayesi, fabrik və zavod tikintiləri inkişaf etdirildi, təhsil sahəsi geniş vüsət aldı. Gənc azərbaycanlıların kezmiş SSRİ-nin müxtəlif ölkələrində təhsil almalarına geniş imkanlar yarandı. Sadə zəhmət adamlarının əməyi yüksək qiymətləndirildi. Böyük quruculuq işləri diqqət mərkəzində oldu. Bakıya Kür suyunun təmizlənərək gətirilməsi yüksək xalq sevincinə səbəb oldu. Vətən uğrunda qəhrəmanlıq göstərən igidlərimizin, elm, ədəbiyyat və incəsənət sahəsində sayılıb-seçilən yaradıcı insanların, habelə əməkdə qəhrəmanlıq göstərən sadə zəhmət adamlarının abidələri ucaldıldı, əməkləri yüksək mükafatlarla qiymətləndirildi. Hətta onların bir çoxu Sosialist Əməyi Qəhrəmanı adı kimi yüksək adlara layiq görüldülər.

Azərbaycan tarixinin taleyüklü zəngin hadisələrlə dolu 30 ildən artıq bir dövrğ məhz Heydər Əliyevin adı ilə barlıdır. Bu dövr ərzində Heydər Əliyev Azərbaycan dövlətini və millətini zamanın ən ağır və çətin sınaqlarından çıxardı, ölkənin ictimai-siyasi, iqtisadi və mədəni-mənəvi tərəqqisinə nail oldu. 1969-cu ildən 1982-ci ilə kimi ölkədə yüksək inkişaf dövrü hökm sürürdü. Heydər Əliyevin hərtərəfli siyasi və təşkilatçılıq bacarığının, dərin zəkasının, fenomen qabiliyyətini görən Moskva onu 1982-ci ildə SSRİ Nazirlər Sovetinin birinci müavini təyin etdi.

Heydər Əliyevin Moskvada işləməsinə baxmayaraq onun qayğı və diqqəti daima Azərbaycanda idi. Zəngin həyat təcrübəsi, yüksək siyasi və döv-

lətçilik bacarığı olan Heydər Əlirza oğlu Əliyev bütün fəaliyyəti dövründə ən təcrübəli siyasi xadim kimi özünü göstərmiş, hərtərəfli biliyə malik bir şəxsiyyət idi. Qorbaçov hakimiyyəti dövründə isə Heydər Əliyevə qarşı olmazın haqsızlıqlar və ədalətsizliklər başlandı. Heydər Əliyevin dərin zəkasından, müdrikliyindən, fitri istedadından, böyük siyasi bacarığından və yüksək nüfuzundan qorxan, ermənilərin əl oyuncağı olan Qorbaçov Heydər Əliyevə qarşı qərəzli, ədalətsiz və heç bir əsası olmayan ittihamlar irəli sürməyə başladı və onu vəzifədən uzaqlaşdırdı. Məhz, Heydər Əliyevin vəzifədən uzaqlaşdırıldığı dövrdə Azərbaycana birbirinin ardınca səriştəsiz, heç bir dövlətçilik, idarəçilik və siyasi bacarığı olmayan adamlar rəhbər təyin olundular. Onlar Azərbaycanın tamam iflasa uğratdılar, Respublikada özbaşınalıq və hərc-mərclik baş alıb gedirdi. Bundan məharətlə istifadə edən düşmənlər torpaqlarımızı zəbt etdilər, 1990-cı il yanvar qırğınını təşkil etdilər, xalqımızın başına çox böyük müsibətlər gətirdilər. Bir milyondan çox azərbaycanlı doğma torpaqlarından qaçqın düşdü.

Ölkəmizin belə bir ağır və çətin məqamında xalqımız yenə də ümidini öz müdrik oğluna – Heydər Əliyevə bağladı və onun yenidən ölkəyə rəhbərlik etməsini tələb etdi. Xalqını bütün varlığı ilə sevən Heydər Əliyev onun bu tələbinə biganə qala bilmədi. O, bu tələbi böyük qayğı hissi ilə yerinə yetirdi, Azərbaycanın belə bir ağır vəziyyətində ikinci dəfə Azərbaycana rəhbər vəzifəyə gəldi.

O, vaxtaşırı Akademiyamızın alimləri ilə görüşər, onların təklif və məsləhətlərini diqqətlə nəzərdən keçirərdi. Yeri gəlmişkən, qeyd edim ki, ulu öndə-

rimiz Azərbaycan Milli Elmlər Akademiyası haqqında çıxışlarının birində demişdi: "Azərbaycan Milli Elmlər Akademiyası bizim milli sərvətimizdir - onu qoruyub saxlamalıyıq. Azərbaycan Milli Elmlər Akademiyası respublikamızın dövlət müstəqilliyinə xidmət etməlidir və Azərbaycan elminin inkişaf etməsində aparıcı rolunu oynamalıdır".

1993-cü il iyun ayında Heydər Əliyev hakimiyyətə yenidən gəldikdən sonra xalqın bu ağır və çətin vaxtında ilk növbədə "atəşkəs rejimini" təmin etdi və ölkədə sabitlik yaratdı. Azərbaycan demək olar ki, ağır böhran içərisində idi. Bu zaman o, heç kəsin təsəvvür edə bilmədiyi və heç kəsin ağlına gəlməyən taleyüklü bir problemi qarşıya qoydu. Heydər Əliyev çox düzgün olaraq fikirləşirdi ki, Azərbaycan torpağının altında zəngin neft və digər qiymətli sərvətlər yatdığı halda, bu torpağın üstə xalq aclıq və səfalət içindədir. Ona görə də o, neft strategiyası layihəsini irəli sürdü. 1994-cü il sentyabr ayının 20-də "Əsrin müqaviləsi" layihəsi çərçivəsində dünyanın bir çox iri neft ölkələri ilə birgə müqavilələr bağlandı, ölkəyə sərmayə axını başlandı və xalqımızın iqtisadi vəziyyəti xeyli yaxşılaşmağa başladı. Respublikada baş alıb gedən hərcmərcliyə, aclığa, özbaşınalığa son qoyuldu, qayda-qanun və nizam-intizam bərpa olundu. Azərbaycanı tədricən dünya ölkələri tanımağa başladılar. Məhz ulu öndərimizin uzaqgörənliyi nəticəsində xalqımız iqtisadi və sosial çətinliklərdən xilas oldu. Neft və qaz sərvətlərindən gələn gəlir hesabına digər sahələr də inkişaf etməyə başladı.

Bakı-Tbilisi-Ceyhan neft kəmərinin çəkilişi ideyası dünya ölkələrinin böyük marağına səbəb oldu. Bu gün həmin neft kəməri layihəsi artıq reallığa

çevrilmişdir. Neftlə yanaşı qaz, qızıl, gümüş və digər mineral sərvətlərə də xarici sərmayə qoyuluşu başlandı və infrastruktur genişləndirildi. Ölkəmizin iqtisadi qüdrəti artdı, siyasi aləmdə mövqeyi möhkəmləndi, quruculuq sahələri genişləndi, dünya ölkələri ilə sülh münasibətləri yarandı, ölkə daxilində sabitlik bərqərar oldu. Beləliklə, ölkəmiz hərtərəfli inkişaf etməyə başladı.

Heydər Əliyevin xalqımızın dilinin, mədəniyyətinin və incəsənətinin inkişafında da misilsiz xidmətləri vardır. Vaxtilə məhv olmaq təhlükəsi ilə üzüzə qalan doğma ana dilimizi məhz, Heydər Əliyev xalqımıza yenidən qaytardı, dövlət dili səviyyəsinə qaldırdı. Azərbaycan dili hazırda dövlətçiliyimizin bütün sahələrində hakim dil kimi özünə yer tuta bilmişdir. Dövlətimizin ən əsas atributlarından olan dilimiz zaman-zaman təzyiqlərə və aşınmalara məruz qalmışdı. Bu böyük mənəvi sərvətin yenidən xalqımıza qaytarılması müstəqilliyimizin ən böyük nailiyyətlərindən biridir. Ulu öndərimiz dilimizin zənginliyini, şirinliyini və büllurluğunu çox gözəl bilirdi və bu dilin hərtərəfli qorunması üçün bütün ziyalılarımızı onun müdafgəsinə səsləyirdi.

Ulu öndərimiz Heydər Əliyev həyatımızın hər bir sahəsində silinməz izlər qoymuşdur. Ümummilli liderimizin siyasi uzaqgörənliyi nəticəsində hərtərəfli inkişaf edən Azərbaycan bu gün regionda lider dövlətdir. İndi Azərbaycan bütün sahələrdə çox böyük sürətlə inkişaf edir və dünyanın ən qabaqcıl ölkələri ilə yanaşı addımlayır.

Akif ƏLİZADƏ,
akademik,
AMEA-nın prezidenti

TƏRTİBÇİ-MÜƏLLİFDƏN

"Heydər Əliyev. Müstəqilliyimiz əbədidir" çoxcildliyi həm tarixiliyi, həm məzmun etibarilə müasir Azərbaycan kitabiyyatı tarixində ən qiymətli və ən sanballı külliyyat kimi diqqəti cəlb edir. Külliyata zəmanəmizin görkəmli siyasi və dövlət xadimi Heydər Əliyevin Azərbaycan xalqının müstəqil, dövlət quruculuğu yolunda ardıcıl və əzmkar mübarizəsini, gərgin və mürəkkəb siyasi hadisələrlə zəngin çağdaş tariximizin obyektiv mənzərəsini əks etdirən böyük ictimai-siyasi əhəmiyyətə malik çıxışları və nitqləri, bəyanat və məktubları, KİV-ə müsahibələri, eyni zamanda beynəlxalq arenadakı qətiyyətli mövqeyi, xarici dövlət rəsmiləri ilə danışıqları, bir sıra xarici dövlət və hökumət rəhbərləri, tanınmış ictimai-siyasi xadimlər, beynəlxalq təşkilat rəhbərləri ilə yüksək səviyyəli görüşləri, Dağlıq Qarabağ probleminin həlli yolları ilə bağlı materiallar, tanınmış ədəbiyyat, mədəniyyət və incəsənət xadimləri ilə söhbətləri və s. materiallar daxil edilmişdir.

Son 15 il ərzində 46 cildi işıq üzü görmüş bu nəfis, dəyərli çoxcildliyin bizə çatdırdığı tarixi gerçəklikləri, həqiqətləri tərəddüd etmədən müstəqil Azərbaycanın keçmişi, bu günü və gələcəyi adlandırmaq olar. Çünki Ulu öndər Heydər Əliyevin 1993-2003-cü illərdəki bənzərsiz çıxışları, nitqləri, müxtəlif bəyanatları, müsahibələri ölkəmizin ictimai-siyasi həyatında baş vermiş mürəkkəb, tarixi proseslərə millətini, xalqını sevən, onun gələcəyini düşünən dahi rəhbərin obyektiv və müdrik yanaşmasının nəticəsidir. Həmçinin kitabda dünya dövlətlərinin və xalqlarının

həyatındakı gedişatlara Heydər Əliyevin məxsusi yanaşması da öz əksini tapmışdır.

"Heydər Əliyev. Müstəqilliyimiz əbədidir" çoxcildliyi böyük siyasi-tarixi əhəmiyyətə malik bir toplu kimi Azərbaycanın müstəqilliyin qorunub saxlanılmasının, inkişaf etdirilməsinin sınanılmış praktiki təcrübəsini əks etdirir. Bununla yanaşı, külliyyatın elmi-nəzəri dəyəri milli dövlət quruculuğu prosesinin başlıca istiqamətlərini dəqiqliklə və uzaqgörənliklə müəyyənləşdirməyə imkan verir. Təsadüfi deyil ki, toplunun müxtəlif cildlərinə daxil edilmiş materiallarda Azərbaycanın dövlət müstəqilliyinin möhkəmləndirilməsi ilə yanaşı, hüquqi dövlət quruculuğu, demokratik yeniləşmə, iqtisadi islahatların aparılması, respublikamızın ərazi bütövlüyünün təmin edilməsi, Ermənistanın hərbi təcavüzünün ağır nəticələrinin aradan qaldırılması, daxili və xarici siyasətin başlıca istiqamətləri və ictimai-siyasi həyatın digər vacib məsələləri öz parlaq əksini tapmışdır.

2013-cü ildə Ümummilli lider Heydər Əliyevin 90 illik yubileyi ilə əlaqədar tədbirlər nəinki Azərbaycanda, habelə dost və qardaş ölkələrdə və ümumiyyətlə, azərbaycanlıların yaşadığı bütün ölkələrdə geniş şəkildə qeyd olunmuşdur. Bu münasibətlə anım tədbirləri, konfrans və simpoziumlar, beynəlxalq əhəmiyyətli görüşlər keçirilir, sanballı əsərlər, kitablar nəşr olunmuşdur.

Ümummilli liderin 90 illik yubileyi ilə bağlı AMEA Mərkəzi Elmi Kitabxanası tərəfindən hazırlanan "Heydər Əliyev. Müstəqilliyimiz əbədidir" çoxcildliyinin elmi-biblioqrafik göstərici də bu qəbildəndir. Ən yaxın tariximizə gün-gün işıq tutan külliyyatın istifadəçilərinin işini asanlaşdırmaq məqsədilə, Azərbaycan Prezidenti Heydər Əliyevin Azərbaycan xalqının tərəqqisi və aydın sabahı naminə

yorulmaz siyasi fəaliyyətinin gündəlik xronikası, zəngin və mənalı həyatının tarixi məqamlarının əks olunduğu "Heydər Əliyev. Müstəqilliyimiz əbədidir" adlı külliyyata elmi biblioqrafik göstərici tərtib olunub. Biblioqrafik göstərici Heydər Əliyevin müxtəlif dövrlərə aid çıxışlarını, nitqlərini, bəyanatlarını, müsahibə və məktublarını özündə əks etdirən sanballı bir silsiləyə bibliometrik yanaşmanı cəmləşdirir. "Heydər Əliyev. Müstəqilliyimiz əbədidir" çoxcildliyi üzrə ilk elmi biblioqrafik göstərici kimi hazırlanan bu nəşr sistemliliyi, əhatəliliyi, daxili strukturu ilə diqqəti cəlb edir.

Biblioqrafik göstəricinin 1-ci cildində "Heydər Əliyev. Müstəqilliyimiz əbədidir" çoxcildliyində əks olunmuş siyasi, ictimai və sosial əhəmiyyətə malik materiallar "Dövlətçilik, müstəqillik və demokratiya", "Milli təhlükəsizlik", "Ordu quruculuğu", "Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsi", "İqtisadiyyat", "Neft strategiyası", "Aqrar siyasət", "Elm və təhsil", "Mədəniyyət, ədəbiyyat, dil, incəsənət", "Bədən tərbiyəsi və idman", "Tibb və səhiyyə", "Milli-mənəvi dəyərlər", "Qadın və ailə", "Uşaq və gənclər" bölmələrdə, 2-ci cildində isə "Dünya azərbaycanlıları", "Dövlətlərarası münasibətlər, beynəlxalq təşkilatlar", "Tarix və tarixi hadisələr", "Azərbaycanın şəhərləri və bölgələri" bölmələrdə oxucuya təqdim edilir. Ən yaxın və şanlı tariximizin araşdırılması, Heydər Əliyev dühasının Azərbaycan tarixindəki təkrarsız xidmətlərini öyrənmək üçün nəzərdə tutulan göstəricidə eyni zamanda, xüsusi bölmədə ümummilli liderimizin səhhəti ilə bağlı mütəmadi Azərbaycan ictimaiyyətini məlumatlandıran Azərbaycan Prezidentinin Mətbuat Xidmətinin məlumatlarına da yer verilmişdir. Göstəricidə eyni zamanda külliyatın

buraxılmasına məsul, akademik Ramiz Mehdiyevin sonuncu cilddə əks olunan "Azərbaycanda müstəqil dövlətçiliyi yaradan və yaşadan – ümummilli lider Heydər Əliyevin qadir siyasətidir" məqaləsi və bibliqrafik göstəricinin hazırlanması layihəsinin rəhbəri akademik Akif Əlizadənin "XX əsrin qüdrətli siyasi lideri" məqaləsi də xüsusi yer tutur.

46 cildlik külliyyatda öz əksini tapmış çıxış və nitqlər, bəyanatlar, məktub və müsahibələr analitik təsvir olunaraq verilmiş və müvafiq bölmələrdə biblioqrafik göstəricidə təqdim edilmişdir. Xronoloji və sistematik struktur, informasiyaların dolğunluğu, informasiya-axtarış aparatı (şəxs adları və coğrafi adlar) üzrə göstəricilərin mövcudluğu nəşrin informativliyini və istifadə keyfiyyətini artırır.

Elektron formada da biblioqrafik göstəricinin oxucuların istifadəsinə verilməsi müxtəlif axtarış parametrlərinin genişlənməsinə, çoxistifadəliliyə, dünyanın hər yerində yaşayan azərbaycanlılarının külliyatla daha yaxından tanış olmasına zəmin yaradır.

"Heydər Əliyev. Müstəqilliyimiz əbədidir" külliyyatının elmi biblioqrafik göstəricisində ayrı-ayrılıqda bütün cildlərin (46 cild) xülasəsi verilmişdir ki, bu da öz növbəsində toplunun annotativ-referativ izlənməsinə də imkan verir.

Ümidvarıq ki, Ümummilli lider Heydər Əliyevin 1993-cü ilin iyunundan 2003-cü ilədək fəaliyyətinin salnaməsi olan çoxcildliyin köməkçi elmi biblioqrafik göstəricisi Heydər Əliyev irsini tədqiq edən alimlər üçün dəyərli bibliometrik mənbə olacaqdır.

Aybəniz ƏLİYEVA-KƏNGƏRLİ
AMEA Mərkəzi Elmi Kitabxanasının direktoru,
filologiya üzrə elmlər doktoru

HEYDƏR ƏLİYEV. MÜSTƏQİLLİYİMİZ ƏBƏDİDİR:

ÇIXIŞLAR, NİTQLƏR, BƏYANATLAR, MƏKTUBLAR, MÜSAHİBƏLƏR

(iyun, 1993 – oktyabr, 2003)

HEYDƏR ƏLİYEV. MÜSTƏQİLLİYİMİZ ƏBƏDİDİR:

ÇIXIŞLAR, NİTQLƏR, BƏYANATLAR, MƏKTUBLAR, MÜSAHİBƏLƏR

(iyun, 1993 – oktyabr, 2003)

DÖVLƏTÇİLİK, MÜSTƏQİLLİK VƏ DEMOKRATİYA

DÖVLƏTÇİLİK, MÜSTƏQİLLİK VƏ DEMOKRATİYA



Azərbaycanın dövlət müstəqilliyi bizim üçün ən əziz, ən qiymətli nailiyyətdir və bu nailiyyəti – dövlət müstəqilliyimizi biz daim qoruyub saxlayacağıq.

◆◆◆

Dövlət istiqlaliyyətinin əldə edilməsi Azərbaycan xalqı üçün tarixi hadisədir və bizim vəzifəmiz, məqsədimiz istiqlaliyyətimizi, beynəlxalq mövqelərimizi hər vasitə ilə möhkəmləndirməkdən ibarətdir.

◆◆◆

Dövlət müstəqilliyini əldə etdikdən sonra Azərbaycan Respublikası demokratik, hüquqi, dünyəvi dövlət quruculuğu yolu ilə əzmlə irəliləyir.

◆◆◆

Azərbaycanın müstəqillik, demokratiya yolu ilə inkişafı dönməzdir.

1. **Abşeron Regional Səhmdar** Su Cəmiyyətinin sədri Oqtay Əsədovun çıxışı // Heydər Əliyev. Müstəqilliyimiz əbədidir: çıxışlar, nitqlər, bəyanatlar, müsahibələr, məktublar, məruzələr, müraciətlər, fərmanlar. **K. 43:** noyabr, 2002 – fevral, 2003/ bur.məsul R.Mehdiyev. – B.: Azərnəşr, 2013. – S. 164-170.

2. **Avropa Şurası Parlament** Assambleyasının (AŞPA) nümayəndə heyəti – Azərbaycan Respublikasının Avropa Şurasına daxil olunmasına dair AŞPA-nın məruzəçiləri Jak Bomel və Corc Klerfayt ilə görüşdə çıxış. *22 yanvar 1998-ci il* //

Heydər Əliyev. Müstəqilliyimiz əbədidir: çıxışlar, nitqlər, bəyanatlar, müsahibələr, məktublar, məruzələr, müraciətlər, fərmanlar. K. 14: dekabr, 1997 – fevral, 1998 / bur. məsul R.Mehdiyev. – B.: Azərnəşr, 2005. – S. 157-163.

3. **Avropa Şurası və Azərbaycan** Respublikası arasında Əməkdaşlıq Proqramının həyata keçirilməsi tədbirləri haqqında Respublika Prezidentinin sərəncamının yerinə yetirilməsi məsələlərinə həsr olunmuş müşavirədə giriş sözü. *10 iyul 1996-cı il* // Heydər Əliyev. Müstəqilliyimiz əbədidir: çıxışlar, nitqlər, bəyanatlar, müsahibələr, məktublar, məruzələr, müraciətlər, fərmanlar. K. 7: iyun, 1996 – noyabr, 1996 / bur. məsul R.Mehdiyev. - B.: Azərnəşr, 1998.- S. 80-82.

4. **Avropa Şurası Venesiya** komissiyasının katibi Canni Bukikkionun başçılıq etdiyi nümayəndə heyəti ilə görüşdə söhbət. *18 aprel 2000-ci il* // Heydər Əliyev. Müstəqilliyimiz əbədidir: çıxışlar, nitqlər, bəyanatlar, müsahibələr, məktublar, məruzələr, müraciətlər, fərmanlar. K. 26: mart, 2000 – aprel, 2000 / bur. məsul R.Mehdiyev. – B.: Azərnəşr, 2009.- S. 340-349.

5. **Avropanın Yerli və Regional** Hakimiyyətlər Konqresinin nümayəndə heyəti ilə görüşdə söhbət. *10 dekabr l999-cu il* // Heydər Əliyev. Müstəqilliyimiz əbədidir: çıxışlar, nitqlər, bəyanatlar, müsahibələr, məktublar, məruzələr, müraciətlər, fərmanlar. K. 23: noyabr, 1999 – dekabr, 1999 /

bur. məsul R.Mehdiyev. – B.: Azərnəşr, 2008.- S. 360-367.

6. **Avtomatlaşdırılmış "Seçkilər" İnformasiya** Mərkəzi ilə tanışlıq. *2 noyabr 2000-ci il* // Heydər Əliyev. Müstəqilliyimiz əbədidir: çıxışlar, nitqlər, bəyanatlar, müsahibələr, məktublar, məruzələr, müraciətlər, fərmanlar. K. 30: sentyabr, 2000 – noyabr, 2000 / bur. məsul R.Mehdiyev. – B.: Azərnəşr, 2010. – S. 353-363.

* **Azərbaycan dövlətçiliyinin qorunub** saxlanması məsələlərinə həsr olunmuş müşavirədə çıxış. *17 mart 1995-ci il* // Heydər Əliyev. Müstəqilliyimiz əbədidir: çıxışlar, nitqlər, bəyanatlar, müsahibələr, məktublar, məruzələr, müraciətlər, fərmanlar. K. 3: dekabr, 1994 – iyun, 1995 / bur. məsul R.Mehdiyev. – B.: Azərnəşr, 1997.– S. 279-300.

***Azərbaycan Həmkarlar İttifaqları** konfederasiyasının II qurultayına // Heydər Əliyev. Müstəqilliyimiz əbədidir: çıxışlar, nitqlər, bəyanatlar, müsahibələr, məktublar, məruzələr, müraciətlər, fərmanlar. **K. 43:** noyabr, 2002 – fevral, 2003/ bur.məsul R.Mehdiyev. – B.: Azərnəşr, 2013. – S. 355-357.

***Azərbaycan Həmkarlar İttifaqları** konfederasiyasının II qurultayında iştirak edən xarici həmkarlar İttifaqı təşkilatlarının nümayəndələri ilə görüş. Prezident sarayı. *6 fevral 2003-cü il* // Heydər Əliyev. Müstəqilliyimiz əbədidir: çıxışlar, nitqlər, bəyanatlar, müsahibələr, məktublar,

mərузələr, müraciətlər, fərmanlar. **K. 43:** noyabr, 2002 – fevral, 2003 / bur. məsul R.Mehdiyev. – B.: Azərnəşr, 2013. – S. 381-390.

7. **Azərbaycan Xalq Cəbhəsi** Partiyasının sədri Əbülfəz Elçibəyə, Müsavat Partiyasının sədri İsa Qəmbərə Azərbaycan Liberal Partiyasının sədri Lalə-Şövkət Hacıyevaya. *4 avqust 1998-ci il* // Heydər Əliyev. Müstəqilliyimiz əbədidir: çıxışlar, nitqlər, bəyanatlar, müsahibələr, məktublar, mərузələr, müraciətlər, fərmanlar. K. 17: iyul, 1998 – oktyabr 1998 / bur. məsul R.Mehdiyev.– B.: Azərnəşr, 2006. – S. 67-70.

***Azərbaycan Xalq Cümhuriyyətinin** yaradılmasının 85 illiyi münasibətilə Azərbaycan xalqına müraciət. 27 *may 2003-cü il* // Heydər Əliyev. Müstəqilliyimiz əbədidir: çıxışlar, nitqlər, bəyanatlar, müsahibələr, məktublar, mərузələr, müraciətlər, fərmanlar. K. 45: may, 2003 – oktyabr, 2003 / bur. məsul R.Mehdiyev. – B.: Azərnəşr, 2013.– S. 40-43.

8. **Azərbaycan xalqına Yeni** il təbriki. *31 dekabr 1996-cı il* // Heydər Əliyev. Müstəqilliyimiz əbədidir: çıxışlar, nitqlər, bəyanatlar, müsahibələr, məktublar, mərузələr, müraciətlər, fərmanlar. K. 8: noyabr, 1996 – may, 1997 / bur.məsul R.Mehdiyev. – B.: Azərnəşr,1998. – S. 229-234.

9. **Azərbaycan xalqına Yeni** il təbriki. *31 dekabr 1998-ci il* // Heydər Əliyev. Müstəqilliyimiz əbə-

